AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

2 MART 2018-ci il CÜMƏ № 48 (6081) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Səhiyyə müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə müəssisələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

**1.** Dövlət büdcəsindən maliyyələşdirilən səhiyyə müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2018-ci il.**

## Sosial təminat müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, sosial təminat müəssisələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

**1.** Dövlət büdcəsindən maliyyələşdirilən sosial təminat müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2018-ci il.**

## Naftalan Şəhər Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Naftalan Şəhər Mərkəzi Xəstəxanasının tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.15-ci yarımbəndində göstərilmiş məbləğin 6,166 milyon (altı milyon bir yüz altmış altı min) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2018-ci il.**

## "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 8, maddə 603; 2006, N 6, maddə 482; 2007, N 8, maddə 745; 2008, N 3, maddə 154; 2009, N 12, maddə 948; 2011, N 11, maddə 983; 2012, N 6, maddə 509, N 7, maddə 668, N 11, maddə 1053; 2013, N 6, maddələr 607, 623, N 7, maddə 791, N 12, maddə 1484; 2014, N 1, maddə 7, N 2, maddə 97, N 6, maddələr 597, 604; 2015, N 3, maddə 255; 2016, N 4, maddə 645, N 6, maddə 990, N 7, maddə 1244, N 11, maddələr 1770, 1775; 2017, N 5, maddə 738, N 6, maddə 1037, N 10, maddə 1772, N 11, maddə 1954; Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 872-VQD nömrəli Qanunu) 20.3-cü maddəsinə "İpotekanın" sözündən sonra "dövlət" sözü əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 fevral 2018-ci il.**

## "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1000-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1000-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2018-ci il.**

## "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 6, maddə 363; 2001, N 11, maddə 696; 2002, N 12, maddə 709; 2003, N 1, maddə 12; 2006, N 8, maddə 657; 2008, N 5, maddə 348; 2009, N 10, maddə 768; 2010, N 5, maddə 374; 2011, N 4, maddə 261, N 12, maddə 1090; 2016, N 12, maddə 1990) aşağıdakı məzmunda 4-1-ci maddə əlavə edilsin:

"Maddə 4-1. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma ödənilən haqq

Enerji istehsalçıları və enerji təchizatı müəssisələri tərəfindən müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma haqq ödənilir. Haqqın məbləği və ödənilmə qaydası müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 fevral 2018-ci il.**

## "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 993-VQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 993-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 6, maddə 384; 2003, N 10, maddə 582; 2007, N 2, maddə 87, N 6, maddə 601, N 8, maddə 769; 2008, N 8, maddə 719; 2010, N 10, maddə 848; 2011, N 4, maddə 290; 2012, N 10, maddə 953; 2013, N 11, maddə 1334; 2014, N 2, maddə 112, N 5, maddə 477, N 10, maddə 1209; 2016, N 8, maddə 1384; 2017, N 7, maddə 1373) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

*3.1.* aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 4-1-ci maddəsinin adında, birinci və ikinci (birinci halda) cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

*3.2.* üçüncü abzasda "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin;

*3.3.* aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"həmin Qanunun 4-1-ci maddəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Energetika Nazirliyi həyata keçirir;";

*3.4.* on üçüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on dördüncü abzas əlavə edilsin:

"həmin Qanunun 4-1-ci maddəsinin adında və birinci cümləsində "qurum" dedikdə Enerji Məsələlərini Tənzimləmə Agentliyi nəzərdə tutulur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2018-ci il.**

## Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında 2017-ci il aprelin 24-də Kişinyov şəhərində və iyunun 12-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Moldova Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 fevral 2018-ci il.**

## "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 3, maddə 127) aşağıdakı məzmunda 16-cı maddə əlavə edilsin:

"Maddə 16. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma ödənilən haqq

Elektrik və istilik enerjisi istehsalçıları tərəfindən müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma haqq ödənilir. Haqqın məbləği və ödənilmə qaydası müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 fevral 2018-ci il.**

## "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 995-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 995-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki:

*3.1.* "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin adında, birinci və ikinci (birinci halda) cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

*3.2.* həmin Qanunun 16-cı maddəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Energetika Nazirliyi həyata keçirir;

*3.3.* həmin Qanunun 16-cı maddəsinin adında və birinci cümləsində "qurum" dedikdə Enerji Məsələlərini Tənzimləmə Agentliyi nəzərdə tutulur.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2018-ci il.**

# Nizami Kino Mərkəzində "Bir ailə" bədii filminin təqdimatı olub

**Martın 1-də Nizami Kino Mərkəzi və "Ədibin Evi"nin təşkilatçılığı ilə Mir Cəlal Paşayevin 110 illik və Qara Qarayevin 100 illik yubileyləri münasibətilə Azərbaycan mədəniyyətinin bu görkəmli xadimlərinin birgə ərsəyə gətirdiyi "Bir ailə" bədii filminin təqdimat mərasimi keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak ediblər.**





## Azərbaycan kinosunun tarixi xalqımızın salnaməsidir

Filmin nümayişindən əvvəl çıxış edən "Ədibin Evi"nin nümayəndəsi Elnur İmanbəyli bu mədəniyyət ocağının gördüyü işlərdən söz açıb. Deyib ki, son bir ildən artıq müddətdə "Ədibin Evi"nin fəaliyyətinin çox vacib bir hissəsini görkəmli ədib və alim Mir Cəlalın ədəbi və elmi irsinə dair materialları toplamaq təşkil edib. Bu məqsədlə "Ədibin Evi" Milli Arxiv İdarəsi, Milli Kitabxana ilə çox sıx işləyərək Mir Cəlalın səs yazılarını, əlyazmalarını bir araya gətirib oxucular və tədqiqatçılar üçün əlçatan etməyə çalışır. Bugünkü tədbir də bu mənada önəm daşıyır. Çünki Mir Cəlalın ssenari müəllifi olduğu "Bir ailə" filmi yenidən ictimaiyyətə təqdim edilir.

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının icraçı katibi, Əməkdar İncəsənət Xadimi Cəmil Quliyev ekran əsərinin ölkəmizə qaytarılması və bərpa edilməsi barədə danışıb. Ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-ci illərinin ortalarında kinematoqrafçılarla görüşündə "Azərbaycan kinosunun tarixi xalqımızın salnaməsidir" fikrini xatırladan Cəmil Quliyev "Bir ailə" filmini bu gün bu salnaməni yaradan və yaşadan ekran əsəri kimi səciyyələndirib. O deyib: "Bu il "Bir ailə" filminin 75 illik yubileyidir. Bu yubiley çox əlamətdar bir dövrə düşür. Bu il biz görkəmli ədib, alim, istedadlı pedaqoq Mir Cəlal Paşayevin 110, böyük bəstəkar Qara Qarayevin 100, həmçinin Azərbaycan kinosunun 120 illik yubileylərini qeyd edirik. Bu tədbirlərlə bağlı Azərbaycan Respublikası Prezidenti İlham Əliyev müvafiq sərəncamlar imzalayıb".

Fransa kinematoqrafiyasının görkəmli xadimi Anri Lanqluanın "Filmlərin taleyi insanların taleyinə bənzəyir. Hər bir yaradılan filmin üzərində zamanın izi qalır. Filmə yanaşarkən ona zamanın prizmasından baxmaq lazımdır" fikrini xatırladan Cəmil Quliyev "Bir ailə" filminin də bu qəbildən olduğunu söyləyib.

Bildirilib ki, film 2008-ci ildə akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə bərpa olunub. Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin köməyi ilə Rusiyadan gətirilmiş bu ekran əsəri hazırda Dövlət Film Fondunda saxlanılır.

Filmin çəkilişləri çox çətin dövrdə, İkinci Dünya müharibəsi illərində aparılıb. O zaman sovet rejissorları Qriqori Aleksandrov və Aleksandr İvanov Bakıya gəlmişdilər. Bakı Kinostudiyasında üç film - "Xəzər dənizçiləri" sənədli filmi, "Bir ailə" və "Sualtı qayıq T9" bədii filmləri çəkildi. Əfsuslar olsun ki, bu filmlərin ekranlara çıxmasına qadağa qoyuldu. Çünki bu filmlərdə Azərbaycan xalqının şücaəti, qəhrəmanlığı, Böyük Vətən müharibəsində qələbə qazanmaq naminə misilsiz xidmətləri tərənnüm olunurdu. Təbii ki, bu, Moskvada, Kremldə əyləşənlərin xoşuna gəlməmişdi. Ona görə də bu filmlərə qadağa qoyuldu.






## "Bir ailə"nin əsas qəhrəmanı Azərbaycan xalqıdır

Filmin çox cəsarətli ekran əsəri olduğunu vurğulayan Cəmil Quliyev deyib: "Bu filmdə heç bir şüar yoxdur. Filmin əsas qəhrəmanı Azərbaycan xalqı, onun fədakar övladlarıdır. Ekran əsərində çox maraqlı qadın surətləri də var. Onlar Azərbaycan qadınının vətənpərvərliyini, gücünü əks etdirir. Filmin bütün dramaturji quruluşu və bədii təsviri Mir Cəlal Paşayevin rəhbərliyi altında həyata keçirilib".

Diqqətə çatdırılıb ki, bu filmdə ilk dəfə Azərbaycan kinosunda kinosimfonizmdən istifadə olunub. Burada musiqi ilə təsvirin vəhdəti tamaşaçını heyran qoyur.

"Sənət ölməzdir. Azərbaycan kinosunun uğuru olan bu filmin yenidən bərpa olunması və ekranlara çıxması sənətin ölməzliyinin təsdiqidir", - deyə Cəmil Quliyev vurğulayıb.

Sonra filmin nümayişi oldu.

1943-cü ildə Bakı Kinostudiyası tərəfindən çəkilmiş bu film İkinci Dünya müharibəsində faşizm üzərində qazanılan qələbədə Azərbaycan neftinin rolundan və xalqımızın vətənpərvərliyindən bəhs edir. Filmin ssenari müəllifi Mir Cəlal Paşayev, bəstəkarı Qara Qarayev, rejissorları Rza Təhmasib, Mikayıl Məmmədov və Qriqori Aleksandrovdur. Rollarda Xosrov Məlikov, Mərziyyə Davudova, Lyubov Orlova, Hökümə Qurbanova, Mirzə Babayev və digərləri çəkiliblər. Film bəstəkar Qara Qarayevin kinoda ilk işidir.

Sovet arxivlərindən tapılan sənəddə filmə qadağa qoyulması ilə bağlı yazılıb: "Bir ailə" kinofilmində Böyük Vətən müharibəsi və həmin müharibədə Kommunist Partiyasının rolu kifayət qədər əks olunmayıb"... Səbəb aydındır: Mir Cəlal Paşayev öz ssenarisində göstərirdi ki, müharibənin bütün yükü sadə xalqın üzərinə düşür. O, öz çörək payını da müxtəlif millətlərin Bakıya təxliyə edilmiş nümayəndələri ilə bölüşən Azərbaycan xalqının qonaqpərvərliyindən, fədakarlığından bəhs edirdi. Amma ssenaridə partiya fəallarının mənəviyyat moizələrinə, nitqlərinə yer verilməmişdi... Məsələnin kökündə həm də Azərbaycana qarşı müstəmləkəçi və qısqanc baxış dayanırdı. Elə Bakıya Qəhrəman şəhər adı verilməməsinin də səbəbi bu idi...

Film vahid süjet xətti ilə bir-birinə bağlı olan üç novelladan ibarətdir. Ekran əsərinin süjeti cəbhədə olan azərbaycanlı tankçı Nəcəfin birgünlük məzuniyyət zamanı aşiq olduğu Katya adlı rus qızına məhəbbəti ətrafında qurulub. Belə ki, əsgər yoldaşı yaxınlıqdakı şəhərdə tanışbilişi olmayan Nəcəfə öz ev ünvanını verir. Nəcəf isə ünvanı səhv salır, başqa ailənin qapısını döyür. Ailə onun səhv gəldiyini bilsə də, üzünə vurmur, mehribanlıqla qarşılayır. Bir gündə Nəcəflə ailənin qızı Katya arasında sevgi bağı yaranır. Katya rolunu Lyubov Orlova, Nəcəf rolunu isə görkəmli aktyor Xosrov Məlikov ifa edib.

## Naməlum şedevr

Sovet kinosunun ulduzlarından biri Lyubov Orlova xatırlayırdı: "Bakı qaçqınlarla dolu idi, almanlar isə artıq Krımı, Rostovu alıb Qafqazın üzərinə yeriyirdilər. Biz isə Bakı Kinostudiyasından çıxmayaraq gecə-gündüz çəkiliş aparırdıq".

Kinoşünas Aydın Kazımzadə "Azərbaycan kinematoqrafçıları" kitabında filmlə bağlı belə bir maraqlı faktı qeyd edib: "Çəkiliş zamanı səhnələrdən birində tankın partladılması lentə alınmalı idi. Rejissorun və Orlovanın xahişi ilə çəkiliş meydançasına hərbi hissədən tank gətirilir. Tankın çəkilişdən sonra hərbi hissəyə qaytarılacağı deyilir. Partlayış saxta olmalı, səhnəni müxtəlif nöqtələrdən dörd kamera çəkməli idi. Amma tank həqiqətən partlayır. Həyəcan siqnalı verilir və partlayış səsinə yaxınlıqda yerləşən hərbçilər gəlirlər. Bir göz qırpımında çəkiliş meydanı əhatəyə alınır. Partlayış vaxtı dörd kameradan üçü işləmir. Çünki partlayışdan şok yaşayan operatorlar kameranı işə sala bilmirlər. Yalnız operator Koretski özünü itirməyib və çəkilişi davam etdirib. Beləliklə, cəbhəyə göndəriləcək tank məhv olub..."

Tanınmış kinoşünas Ayaz Salayev filmlə bağlı fikirlərini jurnalistlərlə bölüşərkən deyib: "Bir ailə" filmi naməlum şedevrdir. Bu, Azərbaycan kinosunda ilk filmdir ki, müstəqilliyin ab-havası duyulur. Bu da Mir Cəlal Paşayevin ssenarisi əsasında reallaşıb. "Bir ailə" Azərbaycanın son dərəcə ləyaqətli övladlarının İkinci Dünya müharibəsində əvəzsiz rolundan bəhs edən filmdir. Bu gün bu filmin üzə çıxması çox əhəmiyyətlidir".

**AZƏRTAC**

---

*Şahin Mustafayev:*

# Yeni Agentlik kiçik və orta sahibkarlığın inkişafında mühüm rol oynayacaq



*Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb. Agentliyin fəaliyyət istiqamətləri, sahibkarlığın inkişafında rolu barədə AZƏRTAC-ın suallarını iqtisadiyyat naziri Şahin Mustafayev cavablandırıb.*

**-Şahin müəllim, bu qurumun yaradılması hansı zərurətdən irəli gəlir?**

-Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkəmizdə sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirləri sistemli və ardıcıl olaraq davam etdirilir. Özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq edilir. Ötən dövr ərzində sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayı son 15 il ərzində 4,3 dəfə artıb, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 80 faizi, məşğulluqda payı isə 75 faizi ötüb.

Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara (KOS-lara) göstərilən texniki, maliyyə, hüquqi, metodiki və s. xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir.

Bütün bunları, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş hədəfləri nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" 2017-ci il 28 dekabr tarixli Fərman imzalayıb. Fərmana əsasən, İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb.

Bu sahədə təkliflər hazırlanarkən sahibkarlığın inkişafı və tənzimlənməsi sahəsində beynəlxalq təcrübədə tətbiq olunan mütərəqqi idarəçilik təcrübəsi araşdırılıb. Belə ki, bir sıra inkişaf etmiş ölkələrdə sahibkarlığın, xüsusilə KOS-ların inkişafı məqsədilə investisiyaların, müasir texnologiyaların, qabaqcıl idarəetmə təcrübəsinin və dövlət tənzimləmə mexanizmlərinin tətbiqinə, yüksək keyfiyyətli, rəqabət qabiliyyətli və ixracyönümlü məhsulların istehsalının stimullaşdırılmasına, sahibkarlıq subyektlərinə informasiya, hüquqi və iqtisadi məsləhət xidmətlərinin göstərilməsi və onların dövlət təşkilatları, yerli və xarici tərəfdaşlarla səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasına yardım edən müvafiq təsisatlar fəaliyyət göstərir.

Azərbaycanda özəl bölmənin inkişafında xüsusi rolu olacaq Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin yaradılması dövlətimizin başçısının özəl sektorun, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına verdiyi böyük önəmin, göstərdiyi davamlı diqqət və qayğının daha bir təzahürüdür.

**-Agentliyin əsas fəaliyyət istiqamətləri barədə məlumat verməyinizi xahiş edirik.**

-Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi qarşısında qoyulan əsas vəzifə ölkədə KOS-ların iqtisadiyyatda rolunun və əhəmiyyətinin, rəqabətqabiliyyətliliyinin artırılması, inkişafının dəstəklənməsi, KOS-lara xidmətlərin göstərilməsi, dövlət orqanları və təşkilatlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, KOS sferasında dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması, dövlət dəstəyi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiq edilməsidir.

Dövlətimizin başçının müəyyənləşdirdiyi vəzifələrə uyğun olaraq, Agentlik KOS-lara dəstək infrastrukturunun inkişafına kömək göstərməli, KOS-ların dəstəklənməsi məqsədilə yerli, xarici və beynəlxalq təşkilatların maliyyə vəsaitlərinin cəlb edilməsi, məqsədli proqramların hazırlanmasını və icrasının təşkilini təmin etməlidir.

Agentliyin daha bir fəaliyyət istiqaməti KOS-lara təlim-tədris, məsləhət, innovasiya, hüquq, maliyyə xidmətlərinə, həmçinin kadr və informasiya-kommunikasiya resurslarına çıxış, marketinq və satışa dəstək, layihələrin idarə olunması, korporativ idarəetmə və s. digər bu kimi beynəlxalq təcrübədə tətbiq edilən kommunikativ mexanizmlərin, eləcə də dövlət orqanları və təşkilatları tərəfindən göstərilən xidmətlərin vahid məkanda - "KOS evləri"ndə təşkili, sahibkarlara göstərilən dövlət xidmətlərinin elektronlaşdırılmasıdır. Bütün bu kommunikasiya və xidmətlər sahibkar məmnunluğunu təmin etməklə operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsiplərinə uyğun həyata keçiriləcəkdir.

Bundan başqa, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi dövlət satınalmalarında KOS-ların iştirakının genişləndirilməsinə istiqamətlənmiş tədbirlər, kiçik və orta sahibkarlıq subyektlərinin hüquqlarının müdafiəsi, müvafiq xarici və yerli təşkilatların KOS-ların dəstəklənməsinə cəlb edilməsi və sahəvi normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlayacaqdır.

**-Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin fəaliyyəti kiçik və orta sahibkarlara nə verəcək?**

-Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, kiçik və orta sahibkarlara göstərilən xidmətlərin vahid məkanda "bir pəncərə" prinsipi üzrə təşkili müsbət nəticələr verməklə, həmin xidmətlərin keyfiyyətinin və əlçatanlığının təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.

Agentlik tərəfindən qeyd etdiyimiz fəaliyyət istiqamətləri üzrə göstərilən xidmətlərlə yanaşı, KOS-lar üçün digər tələb olunan xidmətlərin, xüsusilə bazar araşdırmalarının aparılması, elmi-tədqiqat və təhsil müəssisələri ilə əlaqələrin qurulması və qabaqcıl elmi-texnoloji yeniliklərin tətbiqi, sahibkarların istehsal etdikləri məhsulların satışına dəstək göstərilməsi, biznes inkubatorların fəaliyyətinin təşkili, sahibkarların müraciətlərinə baxılması və s. xidmətlərin "KOS evləri" vasitəsilə həyata keçirilməsi sahibkarlar üçün faydalı olacaq, onların səmərəli fəaliyyətinin təşkilində əhəmiyyətli rol oynayacaqdır.

Bununla yanaşı, KOS subyektlərinin hüquqi və biznes biliklərinə, mütəxəssis bankına və müxtəlif xarakterli məlumat mənbələrinə çıxış imkanlarının artırılması, dövlət xidmətlərindən bir məkanda istifadə imkanlarının yaradılması, biznes və tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi məqsədilə vahid məlumat portalı yaradılacaqdır.

**-Agentliyin fəaliyyətinin təşkili üçün hansı işlər görülür?**

-Hazırda Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin fəaliyyətinin təmin olunması üçün təşkilati tədbirlər həyata keçirilir və sahəvi normativ hüquqi bazanın formalaşdırılması istiqamətində işlər aparılır. Belə ki, artıq müvafiq normativ hüquqi sənədlərin layihəsi hazırlanıb və aidiyyəti dövlət qurumları ilə razılaşdırma mərhələsindədir.

Uzun müddət İqtisadiyyat Nazirliyində işləmiş və bu sahədə təcrübəyə malik Orxan Məmmədov Agentliyin icraçı direktoru təyin olunub.

Sonda bir daha vurğulamaq istərdim ki, Azərbaycan Respublikasının Prezidentinin müvafiq Fərmanla verdiyi tapşırıqların icrası olaraq, Agentliyin və onun tərkibində "KOS evləri"nin fəaliyyətə başlaması bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılmasına, institusional dəstək mexanizmlərinin daha da təkmilləşdirilməsinə, KOS-lar üçün zəruri bütün xidmətlərə vahid məkanda rahat çıxışın təmin edilməsinə şərait yaradacaqdır.

**AZƏRTAC**

---

# Hərracda əmlakın birinə verilən təklif ilkin start qiymətindən 3 dəfə artıq olub

**Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, xarici investisiyaların daha çox qeyri-neft sektoruna yönəldilməsi, özəl sektorun genişləndirilməsi, yeni müəssisələrin yaradılması iqtisadi inkişaf strategiyasının əsasını təşkil edir. Bu istiqamətlərin reallaşdırılması məqsədilə həyata keçirilən özəlləşmə prosesi isə mühüm əhəmiyyətə malikdir. Özəlləşmə ilə bağlı tətbiq edilən "Elektron hərrac" xidməti sifarişlərin elektron qaydada verilməsi prosesini olduqca sürətləndirib və investor marağını artırıb. Özəlləşmə sayəsində Bakı ilə yanaşı, regionlarda yerləşən kiçik müəssisə və obyektlər, sənaye müəssisələri müasir texnologiya ilə təchizatlanır, yenidən fəaliyyəti təmin edilir.**

Belə müsbət nəticələr Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 27 fevral tarixində keçirilən növbəti hərracda da müşahidə edilib. Sifarişlərin elektron müstəvidə həyata keçirilməsi hərracda investor kütləsini artırmaqla rəqabət yaradıb. Bəzi əmlakların özəlləşdirilməsi zamanı hərraclarda rəqabətin müşahidə olunması buna əyani sübutdur. Budəfəki hərracda Bakının Nəsimi rayonunun Dilarə Əliyeva küçəsində yerləşən qeyri-yaşayış sahəsinin hərracı üzrə təkliflər ard-arda səsləndirilib. Əmlaka 3 nəfər sifariş verib. Həmin obyektin özəlləşdirilməsi ilə bağlı 20 dəqiqə rəqabətli hərrac aparılıb. İnvestorlar arasında sağlam çəkişmə əmlakın qiymətini 3 dəfəyədək artırıb. Belə ki, ilkin start qiyməti 250 min manata olan adıçəkilən obyektə ən son 631 min manat təklif edilib.

Qeyri-yaşayış sahələrinin hərracında müşahidə edilən tendensiya nəqliyyat vasitəsinin özəlləşdirilməsində də özünü göstərib. Belə ki, 2 nəfərin sifariş verdiyi VAZ-2106 markalı avtomobilin ilkin start qiyməti 1200 manatdan 1300 manatadək yüksəlib. Bu nəqliyyat vasitəsinin hərracına qoşulan şəxslərdən biri onlayn olaraq qatılıb.

Qeyd edilməlidir ki, budəfəki hərracda özəlləşən 10 dövlət əmlakından 3-ü kiçik dövlət müəssisəsi və obyekti, 3-ü qeyri-yaşayış sahəsi, 1-i yarımçıq tikili, 3-ü isə nəqliyyat vasitəsidir. Özəlləşən kiçik dövlət müəssisələri müvafiq olaraq Bakı, Şirvan və İmişlidə yerləşir. Bakının Kürdəxanı qəsəbəsində yerləşən 7 saylı iaşə obyekti xidmət sahəsində investorlar üçün yaxşı gəlir gətirə bilər. Adıçəkilən obyektin ümumi faydalı sahəsi 214 kv.m, torpaq sahəsi isə 250 kvadratmetrdən çoxdur. Əmlak torpaq sahəsi ilə birgə özəlləşdirilib. Bundan başqa, İmişli rayonunda yerləşən qeyri-yaşayış binası da sahibi üçün əlverişli əmlakdır.

Hərracda özəlləşən qeyri-yaşayış sahələri Bakının Nərimanov və Nəsimi rayonlarında, digəri isə Gəncə şəhərində yerləşir.

**Nəriman CAVADOV,**
**"Respublika".**

*Dilarə Seyidzadə:*

## Azərbaycanda qadınlara 100 il əvvəl seçki hüququnun verilməsi mühüm tarixi hadisədir



**Gəncədə keçirilən "Azərbaycan qadınının seçki hüququ: tarix və müasir qadın hərəkatı" mövzusunda beynəlxalq elmi-praktik konfransda iştirak edən Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi - Prezidentin köməkçisi Dilarə Seyidzadə jurnalistlərə müsahibə verib.**

Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini tarixi qərar adlandıran Dilarə Seyidzadə bu əlamətdar yubileylə bağlı ilk tədbirin Gəncə şəhərində keçirilməsinin təsadüfi olmadığını bildirib. O qeyd edib ki, Tiflisdə Zaqafqaziya Seymi dağıldıqdan sonra burada təmsil olunan millətlərin nümayəndələri ölkələrinə qayıdaraq müstəqil dövlətlər yaratmağın vaxtı çatdığını anlayırlar. Həmin dövrdə Azərbaycanı təmsil edən nümayəndə heyəti Gəncəyə gəlməyə məcbur olur. Çünki Bakı bolşevik-daşnak qüvvələrinin əlində idi. Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Fətəli xan Xoyski məhz mövcud siyasi vəziyyəti nəzərə alaraq, öz məsləkdaşlarına onun Gəncədəki ata mülkündə fəaliyyət göstərməyi təklif edir.

İyirminci əsrin əvvəllərində Azərbaycanda böyük milli oyanış baş verdiyini diqqətə çatdıran Prezidentin köməkçisi o dövrdə yaranmış ictimai-siyasi vəziyyətdən danışıb. "Həmin illərdə çar Rusiyasının digər milli ucqarları kimi, Azərbaycanda da siyasi partiyalar və qurumlar yaratmaq üçün şərait yetişmişdi. Çarın manifestləri, fərmanları imkan verirdi ki, ucqarlarda yaşayan xalqlar öz tələblərini irəli sürsünlər. 1905-ci il martın 5-də böyük sahibkar və milyonçu, həmçinin xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin sarayında keçirilən yığıncaqda çarın ali orqanlarına petisiya formasında ali bir sənəd tərtib olunması qərara alınır. Həmin sənədi böyük ictimai-siyasi xadim, hüquqşünas və diplomat Əlimərdan bəy Topçubaşov tərtib edir. Bu petisiyanı çara təqdim etmək üçün Azərbaycanın görkəmli şəxsiyyətləri Peterburqa gedirlər. Məhz həmin petisiyada Azərbaycan xalqının adından bütün tələblər öz əksini tapmışdı", - deyə Dilarə Seyidzadə vurğulayıb.

Həmin dövrdə siyasi partiyaların yaranması prosesindən də söhbət açan Prezidentin köməkçisi bildirib ki, o vaxt Azərbaycanda Difai, Müdafiə, Müsavat partiyaları yaranır. Azərbaycanlıların görkəmli nümayəndələri Rusiya Dövlət Dumasına seçilir və orada parlament təcrübəsi qazanırlar. Siyasi şərait yarananda isə 1918-ci il mayın 28-də Gəncəyə gəlib, bütün arzularını bu şəhərdə həyata keçirməyə başlayırlar. Ümumilikdə Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, Azərbaycan xalqına bütün zəruri hüquqlar verilir. Ana dili dövlət idarələrində, məktəblərdə və bütün yerlərdə əsas dövlət dili olur və xalq təsərrüfatının bütün sahələri üçün kadr hazırlığına başlanılır.

Müsəlman Şərqində qadınlara seçki hüququ ilk olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövründə - 100 il əvvəl verilib. Bunun mühüm tarixi hadisə olduğunu qeyd edən Dilarə Seyidzadə xatırladıb ki, hələ 1907-ci ildə Dövlət Dumasında iştirak edən azərbaycanlı nümayəndələr qadınlara seçki hüququnun verilməsi ilə bağlı məsələ qaldırmışdılar. Təsadüfü deyildi ki, Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin ilk addımlarından biri də qadınlara seçki hüququnun verilməsi olub.

**AZƏRTAC**

## Gəncədə "Azərbaycan qadınının seçki hüququ: tarix və müasir qadın hərəkatı" mövzusunda beynəlxalq konfrans keçirilir

**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş "Azərbaycan qadınının seçki hüququ: tarix və müasir qadın hərəkatı" mövzusunda ikigünlük beynəlxalq elmi-praktik konfrans işə başlayıb.**



Konfransda Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi - Prezidentin köməkçisi Dilarə Seyidzadə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, həmçinin nüfuzlu alimlər, tədqiqatçılar və ölkə ictimaiyyətinin tanınmış nümayəndələri iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər ki, tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılan Ulu Öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra qonaqlar Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi tarixi hadisədir. Dövlətimizin başçısının bu qərarı Azərbaycan xalqının dövlətçilik ənənələrinin qədimliyinə, zənginliyinə, dövlətçilik tariximizə verilən yüksək dəyərin bariz nümunəsidir.

Elmar Vəliyev qeyd edib ki, qədim tarixə malik Gəncə zəngin elm-təhsil, mədəniyyət mərkəzi olmaqla yanaşı, həm də türk-müsəlman Şərqində birinci parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı olub. Milli Şuranın, hökumətin ilk iclasları bu şəhərdə keçirilib, mühüm qanunlar qəbul edilib, taleyüklü qərarlar verilib. Onlardan biri də Azərbaycan Milli Ordusunun təşkilinə başlanması idi. Nəhayət, ilk alay formalaşdırıldı, Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu 1918-ci il sentyabrın 15-də Bakını bolşevik-daşnak işğalından azad etdi. Beləliklə, Gəncədə güc-qüvvə toplayan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçə bildi.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova dövlətimizin başçısı tərəfindən bu ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini dövlətçilik tariximizə verilən yüksək dəyərin göstəricisi olduğunu diqqətə çatdırıb.

Komitə sədri vurğulayıb ki, müsəlman Şərqində və türk dünyasında ilk demokratik respublikanı yaratmaqla xalqımız sahib olduğu dövlətçilik ənənələrini bir daha təsdiqləyib. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində bu gün ölkəmiz Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi kimi demokratik dövlət quruculuğu proseslərini sürətlə həyata keçirir və inkişaf etdirir. Görülmüş işlər fonunda qadın hüquqlarının qorunması məsələsi də öz aktuallığını saxlayır. Bu gün qadınların göstərdiyi fəallıq bir tərəfdən çoxəsrlik tarixə söykənən zəngin ənənələrlə bağlıdırsa, digər tərəfdən dövlətin qadın siyasəti və yaradılan şəraitlə bağlıdır. Müasir qadın hərəkatının yeni prioriteti qadınların kişilərlə bərabər imkanlara nail olmasıdır.

Hicran Hüseynova Azərbaycan tarixində ictimai-siyasi, maarifçilik və xeyriyyəçilik fəaliyyəti ilə seçilən, xalqın milli mənlik şüurunun formalaşmasında böyük rol oynayan ictimai fəal qadınlardan söhbət açıb və onların yaradıcılıqlarının ayrı-ayrı sahələrinə toxunub. Vurğulanıb ki, Azərbaycan xalqının liderləri ölkənin ictimai-siyasi həyatında qadınların rolunu düzgün qiymətləndirib. Bunun nəticəsi olaraq, Xalq Cümhuriyyətinin qurucuları müsəlman Şərqində ilk dəfə olaraq qadınlara seçki hüququnun verilməsinə nail olublar. Halbuki həmin dövrdə seçki sahəsində gender bərabərliyi prinsipi nəinki müsəlman Şərqində, hətta Avropa dövlətlərinin əksəriyyətində hələ öz həllini tapmamışdı. Təsadüfi deyildi ki, 1918-1920-ci illərdə Azərbaycanda işləyən qadınların sayı artaraq kişilərlə bərabərləşmişdi. Həmin dövrdə qadınlar yalnız kənd təsərrüfatında, fabrik və zavodlarda deyil, həm də parlament və hökumət aparatında mühüm vəzifələrdə işləyirdilər.

Komitə sədri qeyd edib ki, müasir dövrdə ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər istər sovet hakimiyyəti, istərsə də müstəqillik dövründə milli qadın hərəkatının formalaşması, genişlənərək institutlaşması üçün mühüm işlər görüb. Sonrakı illərdə isə bu siyasət Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilib.

Prezident Katibliyinin rəisi - Prezidentin köməkçisi, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə "Azərbaycan XX əsrin əvvəllərində: milli oyanış" hərəkatı mövzusundakı məruzəsində bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etməyə başladığımız bir vaxtda Cümhuriyyətə doğru aparan yolların nəzərdən keçirilməsi çox vacibdir. Çünki xalqımız məhz həmin yolu keçərək öz müstəqil dövlətini qurmuşdu və bu böyük hadisə Azərbaycan xalqının XX əsrin əvvəllərində azadlıq və müstəqillik uğrunda ardıcıl və inamlı mübarizəsinin qanunauyğun yekunu kimi qəbul edilməlidir.

Ötən əsrin ilk illərindən başlayaraq çar Rusiyasının ucqarlarda, xüsusən Azərbaycandakı milli müstəmləkəçilik siyasətini tarixi faktlar əsasında geniş şərh edən Dilarə Seyidzadə qeyd edib ki, 1917-ci ilin fevralında Rusiyada çarizmin devrilməsindən sonra başqa xalqlar kimi, Azərbaycan xalqının da qarşısında sosial-iqtisadi, siyasi və milli inkişaf üçün geniş imkanlar açılmışdı. Dövlət Dumasının Azərbaycandan olan deputatları Rusiyada parlamentarizmin təşəkkülündə və inkişafında iştirak edərək, parlament fəaliyyəti sahəsində böyük təcrübə qazanmışdılar. Bu təcrübə onlara bütün səylərini birləşdirərək qısa müddətdə müsəlman Şərqində ilk dəfə olaraq demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətini yaratmağa imkan verdi.

Prezidentin köməkçisi, həmçinin Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə həyata keçirilən bir sıra mühüm tədbirlər, qəbul edilən qanunlar, eləcə də həmin illərdə Difai, Müsavat partiyaları, Cümhuriyyətin qurucularının siyasi fəaliyyəti, o cümlədən Dövlət Dumasında, dövri mətbuatda cəsarətli çıxışları və Azərbaycanın istiqlaliyyəti uğrunda apardığı mübarizə haqqında ətraflı məlumat verib.

"Azərbaycan nümayəndələri Dövlət Dumasında dəfələrlə çıxış edərək əhaliyə bərabər hüquqlar verilməsini, seçkilərdə bütün əhalinin iştirak hüququnun tanınmasını tələb edirdilər. Onlar hələ 1907-ci ilin mayında II Dövlət Dumasında müsəlman fraksiyasının üzvləri ilə birlikdə təqdim etdikləri qanun layihəsində insanların siyasi və vətəndaşlıq hüquqlarında dini və milli mənsubiyyətlə bağlı məhdudiyyətin ləğvini tələb etmişdilər. Layihədə qadınların hüquq bərabərliyi haqqında da məsələ qaldırılmışdı. Bu, Azərbaycan qadınının hüquq bərabərliyi, onun seçki hüququnun təmin edilməsi istiqamətində ilk və inqilabi addım idi.

Həmin dövrdə yaranmış siyasi partiyaların və təşkilatların vahid bir məqsədi var idi - bütün milli qüvvələri birləşdirmək, millətin mənafelərini müdafiə etmək, bərabərliyə, hüquq qaydasına və qanunçuluğa nail olmaq. Sosial cəhətdən kifayət qədər rəngarəng olan, öz sıralarında əhalinin demək olar ki, bütün təbəqələrini birləşdirən bu təşkilatlar bütövlükdə Azərbaycan cəmiyyətinin maraqlarını ifadə etməyə çalışırdılar. Petisiyaların və ərizələrin müddəaları, partiya və təşkilatların proqramları, mətbuat orqanları uzun illər tam hüquqsuzluq şəraitində yaşamış Azərbaycan xalqının ümid və arzularını özündə əks etdirirdi", - deyə Dilarə Seyidzadə vurğulayıb.

Azadlıq hərəkatının böyük yüksəliş və milli oyanış dövrünün Azərbaycan xalqına istedadlı, yüksək peşəkar ictimai-siyasi xadimlərin parlaq bir nəslini bəxş etdiyini diqqətə çatdıran Prezidentin köməkçisi ümummilli lider Heydər Əliyevin Azərbaycanda ilk demokratik respublikanın qurulmasında onların böyük xidmətlərini yüksək qiymətləndirdiyini xatırladaraq Ulu Öndərin bu sözlərini sitat gətirib: "Onların gördüyü işlər Azərbaycan xalqının bu günü üçün çox böyük əhəmiyyət kəsb edir. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır".

"Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin keçirilməsi ilə bağlı Sərəncamında da xüsusi qeyd edilir ki, Xalq Cümhuriyyəti milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirib. XIX əsrin axırları - XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxıb", - deyən Dilarə Seyidzadə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmasına görə dövlətimizin başçısına konfrans iştirakçıları adından təşəkkürünü bildirib.

Sonra Ombudsman Elmira Süleymanova konfransda "Seçki hüququ - fundamental insan hüququdur" mövzusunda çıxış edib. O, diqqətə çatdırıb ki, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının İstiqlaliyyət bəyannaməsi, daha sonra isə parlamentdə qəbul etdikləri qanunlar yüksək demokratikliyi ilə seçilməklə yanaşı, həm də onların insan, vətəndaş hüquq və azadlıqlarına verdikləri dəyərin göstəricisi idi. Xalq Cümhuriyyəti dövründə bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi Azərbaycan parlamentində mövcud olan siyasi mədəniyyətin və demokratik mühitin əyani sübutudur.

Daha sonra İstanbul və Yeddltəpə universitetlərinin professoru İbrahim Yıldırımın Türkiyəyə mühacirət etmiş azərbaycanlı qadınlar barədə məruzəsi dinlənilib. Türkiyəli professor çıxışında Azərbaycanın bolşevik işğalından sonra mühacirət etmək məcburiyyətində qalan və taleyini qardaş ölkəyə bağlayan bir sıra ziyalı qadınların nəsil şəcərəsini araşdırdığını və bu sahədəki elmi tədqiqatlarının nəticələrini diqqətə çatdırıb.

Konfransda BDU-nun Azərbaycan tarixi kafedrasının dosenti Lətifə Əliyevanın, AMEA-nın Tarix İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri İradə Bağırovanın, həmin institutun Azərbaycan Xalq Cümhuriyyətinin tarixi şöbəsinin aparıcı elmi işçisi Kamran İsmayılovun, Azərbaycanın sovet dövrü tarixi şöbəsinin müdiri İlqar Niftəliyevin, Azərbaycan Dövlət Aqrar Universitetinin İctimai elmlər və multikulturalizm kafedrasının baş müəllimi Samirə Qasımovanın mövzu ilə bağlı məruzələri də dinlənilib.

Beynəlxalq elmi-praktik konfransda "Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlar" adlı film nümayiş etdirilib.

Tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə respublikanın ictimai-siyasi, sosial-mədəni həyatında fəallıq göstərən qadınlar, həmçinin Gəncə, Yevlax, Mingəçevir şəhərlərinin, Ağdam, Bərdə, Tərtər, Samux, Göygöl, Şəmkir və Kəlbəcər rayonlarının icra hakimiyyəti başçılarının müavinlərinə diplomlar təqdim olunub.

**AZƏRTAC**

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi*

# İSTİLANIN DOĞURDUĞU FƏSADLAR

## *"Gülüstan"dan 205, "Türkmənçay"dan 190 il keçir*

***(əvvəli 23, 24 25 və 27 fevral tarixli saylarımızda)***

Yeni türk əlifbasına keçidlə bağlı İrəvanda müvafiq Komitə yaradıldı. 1924-cü il aprelin 28-də təşkil edilən bu Komitə Türk bölməsinin rəhbərliyi altında Ermənistanın türk əhalisi arasında yeni türk əlifbasına keçidlə bağlı iş aparırdı.

Ermənistanda sovet hakimiyyətinin ilk illərində, daşnak fəaliyyətinin mühacir və gizli məzmun aldığı dövrdə Türk bölməsi geniş planlarla işə başlamasına, fəal mövqe tutmasına baxmayaraq, həm də Azərbaycan SSR-in passiv münasibəti səbəbindən ciddi nəticələrə nail ola bilmirdi. Burjua millətçiliyində ittiham edilən Nərimanovçularla mübarizə, Xanbudaqovla bağlı milli təmayülçülüyə qarşı kampaniyalar Azərbaycan SSR ərazisində idarəetməni milli zəmindən uzaqlaşdırmağa yönəldildiyi halda, Ermənistan türklərinə hansı səviyyədə dəstək verilə bilərdi? Azərbaycana təhsil almağa göndərilənlər türk bölməsinin dəfələrlə etdiyi müraciətlərə, tələblərə baxmayaraq, öz yerlərinə ezam edilməmiş, başqa müxtəlif iş yerlərinə göndərilmişlər. Nəticədə, kadr çatışmazlığı Ermənistandakı türk rayonlarında kənd sovetlərinin türkləşdirilməsini həyata keçirməyə imkan vermirdi. Eyni vəziyyət Bakıya ezam edilmiş türk qadınlarına da aiddir. Qadın kurslarını bitirən kimi Azərbaycanın qəzalarına işə göndərilirdilər və Ermənistan SSR ərazisində, yalnız İrəvan şəhərində türk qadınları arasında iş aparılırdı. Türk bölməsinin fəaliyyəti ilə bağlı 50-yə qədər bənddə ifadə olunmuş məsələləri təxirəsalınmaz hesab edən bölmə müdiri 1925-ci ildə yenidən Ermənistan KP MK katibliyinə daha konkret məzmunda müraciət etmiş, tələblər qoymuşdur: türk işçilərinin hara göndərilməyindən asılı olmayaraq, Ermənistandan ezam edilməsi müvəqqəti dayandırılsın; Ali təhsil müəssisələrində, habelə Bakı sovet-partiya məktəblərində təhsilini başa vurmuş bütün kursantlar, tələbələr dərhal geri çağırılsın, daşnaklar dövründə Ermənistanı tərk etmiş, hazırda qonşu sovet respublikalarında çalışan İrəvan türk ziyalılarından olan istər partiya, istərsə də mədəniyyət işçi kadrları səfərbər edilsin. Müvafiq siyahıları təqdim edən B.Əfəndiyev Ermənistanda türklərin irəliləməsinə imkan verilməməsi barədə siyasi cəhətdən səbatsız şəxslərin şayiə yaydığını da qeyd edirdi. Türk bölməsinin rəhbəri Ermənistan sovet hökumətinin türklərin inkişafına göstərdiyi münasibətin səmimiliyinə, həqiqətən, inanırdı. Gənc yaşlarında Bakı "inqilab məktəbini" keçmiş B.Əfəndiyev Azərbaycanda, Ermənistanda, Zaqafqaziya rəhbərliyində bir çox vəzifələrdə çalışsa da, onun da həyat yolu məhz 1938-ci ildə sona yetdi. Təvəllüdünün 90-cı ildönümü - sovet hakimiyyəti ilində - 1983-cü ildə yaşayan erməni "əqidədaşları" isə peşəkar incəliyi ilə 1988-ci ilə hazırlaşırdılar. 1988-ci il şərti tarixdir. Erməni millətçiləri həsrətində olduqları işə xeyli əvvəllər də cəhd edilmişdi. Hər fürsət düşdükcə, 30-cu illərin repressiya burulğanında Azərbaycan xalqının görkəmli üzvlərinin məhvi ilə kifayətlənə bilməyənlər müharibə dövründə azərbaycanlıların köçürülməsi planını da hazırlamışdılar. Plan baş tutarsa, heç bir etnik problemlə rastlaşmadan geniş ərazilərə sahib çıxmaq mümkün ola bilərdi. Planın iflası yenə də konkret ərazi iddiası ilə çıxış etməyə vadar etdi. 1945-ci ildə Ermənistan K(b)P MK, Dağlıq Qarabağın Ermənistan SSR-ə daxil edilməsi məsələsini ÜİK(b)P MK səviyyəsində yenidən qaldırdı. Azərbaycan K(b)P MK-nın müvafiq reaksiyası Ermənistanın niyyətini puça çıxartdı, yeni planlar tərtib edilməyə başlandı.

1948-1950-ci illərdə Ermənistan azərbaycanlılarının kütləvi deportasiyası həyata keçirildi. 1948, 1960, 1964-cü illərdə Dağlıq Qarabağı Ermənistana birləşdirmək məsələsi dönə-dönə ittifaq rəhbərliyi qarşısında qaldırılırdı. Paralel olaraq "erməni genosidi"nin beynəlxalq aləmdə təsdiqinə nail olmaq üçün genişmiqyaslı iş aparılırdı. Eyni vaxtda Ermənistandakı qədim yer adları erməniləşdirilirdi. Türkiyə xadimlərinə qarşı silsilə sui-qəsdlər təşkil edilirdi. SSRİ-də növbəti rəhbərliyin dəyişilməsi "böyük Ermənistan" "xəstələrini" hərəkətə gətirdi. Aşkarlıq, yenidənqurma şüarları ilə başlayan proseslər erməni millətçiləri üçün əlverişli imkan yaradırdı. Əslində isə onlar daha əvvəl, L.Brejnevin vəfatından sonra canlanmağa başlamışdılar. Azərbaycan ərazisində yerləşən erməni ruhani idarələrinin (Bakı erməni kilsə yeparxiyası (1825-1918), Bakı erməni ruhani konsistoriyası (1906-1920), Şamaxı erməni ruhani konsistoriyası (1912-1920), Bakı erməni kilsələrinə hami təşkilatı (1871-1919) arxivləri 1983-cü ildə Ermənistan SSR-ə verilmişdi. Təxribat xarakterli bəyanatlar, Ermənistan ərazisindən azərbaycanlıların kütləvi çıxarılmasına yönəldilən tədbirlər, Dağlıq Qarabağda sosial-iqtisadi məzmunlu çıxışlar, milli rolu oynamayan, həmçinin mərkəz bir şəhərdə - Sumqayıtda "erməni talanları" ssenarisi, məharətlə planlaşdırılmış və həyata keçirilən erməni tədbirləri "sovet insanları", - Azərbaycan əhalisi üçün gözlənilməz oldu. Düz 30 il əvvəl, fevral günlərində adi gündəlik həyatını yaşayan azərbaycanlının ağlına da gəlmirdi ki, Sumqayıtda baş vermiş çaxnaşma, gərginlik haqqında xəbərlər çox acı günlərin, çoxsaylı tələfatın, ərazi itkisinin, qaçqın taleyinin, ədalətsiz müharibənin sorağıdır. Və sonradan olacaqlar üçün "Sumqayıt faciəsi" oynanılmalı idi. Bu, erməni millətçisinə lazım idi. Bütün əməllərinə pərdə olacaq, haqq qazandıracaq "tamaşanın" əsas iştirakçılarının erməni fitnəkarları olduğunu, üstündən 30 il keçsə də, beynəlxalq ictimaiyyətə qəbul etdirə bilmirik. Çünki hadisədən az sonra "Sumqayıt faciəsi" erməni təqdimatında dünyaya yayılmışdı. Əslində həmin faciə Azərbaycan xalqının faciəsidir. XX əsrin sonunda talana, qarətə, işgəncəyə, zorakılığa, zülmə məruz qalan azərbaycanlı oldu. Nə idi səbəbi? Çünki onun yaşadığı, ocaq qurduğu, əkib-becərdiyi, dolandığı torpaqlar qonşu tamahına düçar olmuşdu. Tamahkar qonşu nəyin bahasına olursa-olsun, istədiyinə çatmaq niyyətindədir. Bəlkə azərbaycanlıdan oğurladıqları içərisində "niyyətin hara, mənzilin ora" məsəli də olubdur və bu deyimdən ilhama gəlib uğur qazanacaqlarına əmin olublar. Amma bir şeyi unudublar ki, indiyədək nəyə nail olubsalar da, başqasının təzyiqinə, zoruna güvənərək əldə ediblər. Özünəgüvənc hissindənsə özünütəbliğ seçimində iqrar edənlər necə davransalar da, qonşusu yenə azərbaycanlı, gürcü, türk və b. olacaqdır. Bu qədər xalqları yerindən-yurdundan etmək nə erməni gücünün hünəri deyil, nə də belə bir ənənəsi olmayıbdır. "Torpaqdan pay olmaz" deyirlər, amma biz ermənilərə xeyli torpaq bağışlamışıq, həmin torpaqda dövlət də qura biliblər, paytaxt da seçiblər. Bəlkə ata-baba prinsipimizə xilaf çıxdığımız üçün yenə də torpaq payı istəyirlər. Amma ianə kimi yox, "əzəli sahiblik ixtiyarı ilə". Hazırda dövlətin adında deyilən "Ermənistan" etnoqrafik deyil, coğrafi termindir. Coğrafi termin kimi isə "Ermənistan" sözünün təyinatı bu gün dövlət formasında mövcud əraziyə şamil edilməmişdir. Şamil edilmiş ərazi isə Kiçik Asiya ərazisindədir və hayların (ermənilərin) ilkin vətəni deyildi. Hayların yaşadığı ölkə heç də Armeniya demək deyildir. Çağdaş Ermənistan Respublikasının yerləşdiyi ərazi ilə hayların köçərək məskən saldığı Armeniyanın heç bir əlaqəsi yoxdur. İndiki ərazisində yerləşən dövlətə qədimdə məskən saldıqları coğrafi adı aid etmək həqiqətdən uzaqdır. Hayların dövlətə malik hazırkı ərazisi də tamam kənar ərazi adı ilə deyil, ya öz coğrafi adı, ya da orada dövlət sahibi olanların öz dillərində dedikləri tərzdə çağırılmalıdır. İddia etdikləri ərazilərdə böyük dövlət qurmaq xəyalından əl çəkməyən ermənilərə başqa millətlər tərəfindən ünvanlanan milli-coğrafi-dövlət adları isə onlar üçün məqsədə müvafiq olduğundan sərf edir. Və bu gün işlədilən Ermənistan - Armeniya, ermənilər-armyane düzgün təyinat məzmunu daşımır və eyni zamanda bu ifadələr hayların Qafqaza gəlmə olduqlarını dönə-dönə özündə ehtiva edir. Yəqin ki, haylar da həqiqəti yaxşı bildiyindən öz addaşıyıcılarında ənənəni saxlamağa (haylar olaraq yaşadıqları ərazini və malik olduqları dövləti Hayastan adlandırırlar) və iddia ərazilərində Armeniyada olmuş yer adlarının təkrarını yaratmağa çalışmışlar. Azərbaycanın tarixi ərazi bütövlüyü isə son iki əsrdə dəfələrlə pozulsa da, "Gülüstan" müqaviləsindən rəsmiləşmiş inzibati dəyişikliklərin, siyasi proseslərin nəticəsində kiçildilmiş bir ərazidə qurulan Azərbaycan Respublikası hələ də iddia hədəfindən xilas ola bilmir. Bağlanmış müqavilələrin müddət və məzmun şərtiliyi, qüvvədəndüşmə, ləğvedilmə təcrübəsinin saysız tarixi nümunələri olduğu halda, siyasi dövlət quruluşları radikal dəyişikliyə uğramış dövlətlər arasında bağlanmış "Türkmənçay" müqaviləsinin bütün şərtləri tarixi əhəmiyyətini itirsə də, kəskin məzmun dəyişikliyinə uğrasa da, yalnız Azərbaycan torpağını ayıran şərt qüvvədə qaldı, xalqımıza ayrılıq taleyini yaşatmaqda davam edir. Beynəlxalq aləmin müstəqil hüquqi subyekti kimi Azərbaycan Respublikası bütün dövlətlərin ərazi bütövlüyü prinsirinə əməl edərək, qonşu dövlətlər ərazisində qalmış tarixi torpaqlarımıza qarşı heç bir iddia ilə çıxış etmir. Tarixi Azərbaycan torpaqlarında dövlət gerçəkliyinə nail olmuş Ermənistan Respublikası isə beynəlxalq prinsirlərə etinasızlıqla təcavüzkar siyasət yeritməkdə davam edir. Nə tarixə üz tutmaq, nə hüquqa sığınmaq qonşularımıza mənfəət gətirməz. Çünki, həqiqi tarix də, hüquqi əsas da bu yersiz iddiada yalnız azərbaycanlıya haqq verir. Haqqımızı tələb etməkdə isə bizi heç kim qınamaz. Buna isə mənəvi ixtiyarımız var.

**Firdovsiyyə ƏHMƏDOVA,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, Əməkdar müəllim.**

# Mədəniyyət və turizm naziri Moldova nümayəndə heyəti ilə görüşüb

**Martın 1-də mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Moldova Respublikası Təhsil, Mədəniyyət və Tədqiqatlar Nazirliyi Aparatının rəhbəri Georq Postikenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Qeyd edək ki, Moldova nümayəndə heyəti Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Azərbaycan Yazıçılar Birliyi Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin təşkilatçılığı, Moldova Azərbaycanlıları Konqresinin iştirakı ilə martın 3-dək Bakıda keçirilən "Moldova ədəbiyyatı günləri"ndə iştirak etmək üçün ölkəmizdə səfərdədir.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Ə.Qarayev qonaqları salamlayaraq "Moldova ədəbiyyatı günləri"ni ikitərəfli əlaqələr üçün ciddi addım kimi dəyərləndirib. Bildirib ki, bu cür qarşılıqlı layihələr ümumilikdə Azərbaycan-Moldova arasındakı əməkdaşlığa stimul verir: "Tədbirə Moldovanın tanınmış mədəniyyət və ədəbiyyat xadimlərinin dəvət olunması ədəbiyyat adamlarının bir-birini tanımasına xidmət edir. Bu gün hər iki tərəfin bir-birinin ədəbi mühiti ilə tanışlığı cəmiyyətin ölkələrimiz arasında baş verən mədəni proseslərdən xəbərdar olmasına şərait yaradır".

Səfər çərçivəsində keçiriləcək görüşlərin səmərəliliyinə ümidvar olduğunu qeyd edən Əbülfəs Qarayev diqqətə çatdırıb ki, bu gün Azərbaycanla Moldova arasında əlaqələr yüksək xətlə inkişaf etməkdədir. GUAM üzvü olan ölkələrin birgə layihələrində Moldova ilə əməkdaşlığın perspektivləri və ortaq layihələrin müsbət nəticələrini vurğulayan nazir Azərbaycanda keçirilən mədəniyyət layihələrində Moldovanın aktiv iştirakından məmnunluğunu ifadə edib. Bildirilib ki, Moldova incəsənət ustaları mütəmadi olaraq Azərbaycanda keçirilən beynəlxalq musiqi, teatr və digər festivallarda iştirak edirlər: "Kitab və mətbuat sahəsində əməkdaşlıq isə bu tanışlığı bir addım da yaxınlaşdırır. İnsanların intellektual inkişafına xidmət edən kitabların və ədəbiyyat adamlarının tanıdılması mühüm əhəmiyyət kəsb edir".

İki ölkə arasında münasibətlərin inkişafında göstərdiyi xidmətlərə görə hər iki ölkənin səfirliklərinə və Moldova Azərbaycanlıları Konqresinə təşəkkürünü bildirən Əbülfəs Qarayev xalqlarımız arasında oxşar mədəniyyətlərin olduğunu vurğulayıb. UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş Azərbaycanın Novruz bayramı ilə Rumıniya və Moldova respublikalarının milli bayramı olan Bahar günü - Martişor bayramı arasında oxşar xüsusiyyətlər qeyd edilib.

Moldova Respublikası Təhsil, Mədəniyyət və Tədqiqatlar Nazirliyi Aparatının rəhbəri Georq Postike səmimi qəbula görə nazirə təşəkkürünü bildirib. O, Bakıda "Moldova ədəbiyyatı günləri" layihəsinin həyata keçirilməsində göstərdiyi təşəbbüsə görə əlaqədar təşkilatlara minnətdarlıq edib.

Qeyd olunub ki, iki ölkə arasında son 25 ildə siyasi, mədəni, iqtisadi əlaqələr inkişaf edib, Moldovada Azərbaycan diasporunun normal fəaliyyəti təmin olunub. Georq Postike Moldovada nəşr olunan "Azərbaycan xalçaları" seriyasından təqvimi nazirə təqdim edib.

Görüşdə iştirak edən Moldovanın Azərbaycandakı səfiri Georq Leuka Azərbaycan Yazıçılar Birliyinə və qurumun Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinə minnətdarlığını bildirib. Qeyd edib ki, layihə çərçivəsində mərkəzin nəşri olan "Dünya ədəbiyyatı" jurnalının Moldova ədəbiyyatına həsr olunmuş xüsusi sayının hazırlanması, Arkadie Suçevianunun "Qağayı ilə göndərilən məktub" şeir toplusu, İqor Volnitskinin "Mənə ölməyi öyrət" kitabının müzakirəsi və təqdimatları, habelə Moldova poeziya gecəsinin keçirilməsi planlaşdırılır. Bildirilib ki, Kişineuda Azərbaycan ədəbiyyatı ilə bağlı çap edilən kitabların təqdimatı keçiriləcək.

Səfir il ərzində qarşılıqlı mədəni tədbirlər planı haqqında da məlumat verib. Bildirib ki, Moldova sənət ustaları Azərbaycanda keçiriləcək Beynəlxalq Muğam festivalı, "İpək yolu" beynəlxalq musiqi festivalında iştirak edəcək, çoxsaylı qarşılıqlı layihələr reallaşdırılacaq.

Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzov konqres tərəfindən görülən işlərdən söz açıb. Vurğulayıb ki, konqres Moldovada fəaliyyət göstərən yaradıcı ittifaqlarla sıx əməkdaşlıq edir.

Moldova Yazıçılar Birliyinin sədri Arkadi Suçevyanu mədəni sahədə əlaqələrin möhkəmlənməsində maraqlı olduqlarını bildirib: "Mədəni yaxınlıq ölkələr arasında ictimai-siyasi vəziyyətə hər zaman müsbət təsir göstərir. Kişineuda Azərbaycan yazıçılarının hekayə antologiyası, Xalq Yazıçısı Anarın "Ağ qoç, qara qoç" romanı nəşr edilib".

Sonda nazir Əbülfəs Qarayev 65 illik yubileyi və dünya mədəniyyətinə verdiyi töhfələrə görə Moldova Yazıçılar Birliyinin sədri Arkadi Suçevyanuya, Azərbaycan və Moldova arasında ədəbi və mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzova fəxri fərman və hədiyyələr təqdim edib.

AZƏRTAC

*Nazir Norbert Hofer:*

# Avstriya Azərbaycanda həyata keçirilən nəqliyyat və İKT layihələrinə xüsusi maraq göstərir

**Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Vyanaya rəsmi səfəri çərçivəsində Avstriyanın nəqliyyat, innovasiya və texnologiyalar naziri Norbert Hofer ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə müxtəlif sektorlar üzrə əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərinə dair səmərəli müzakirələr aparılıb.

Ramin Quluzadə ölkəmizin təşəbbüsü ilə son illərdə həyata keçirilən regional əhəmiyyətli infrastruktur layihələri, o cümlədən Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin səmərəliliyinin artırılması istiqamətində görülmüş işlər barədə geniş məlumat verib. Bununla yanaşı, İKT və rabitə sahəsində milli səviyyədə həyata keçirilən proqram və layihələr, o cümlədən Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan Trans-Avrasiya Super İnformasiya Magistralı layihəsinə toxunub. Nazir bu çərçivədə Avstriya şirkətlərini Azərbaycanın İKT və nəqliyyat sektorlarında daha fəal olmağa, öz məhsul və həllərini hər il Bakı şəhərində təşkil olunan "Bakutel" Beynəlxalq Telekommunikasiya Sərgisində nümayiş etdirməyə dəvət edib.

Norbert Hofer Avstriyanın Azərbaycanda həyata keçirilən nəqliyyat və İKT layihələrinə xüsusi maraq göstərdiyini söyləyib və bu xüsusda, iki ölkənin müvafiq qurumları və özəl sektor nümayəndələri arasında təmasların intensivləşdirilməsini təklif edib.

Tərəflər ikitərəfli əməkdaşlığın hüquqi bazasını təkmilləşdirmək məqsədilə iki nazirlik arasında yeni əhatəli Anlaşma Memorandumunun hazırlanaraq imzalanması üzrə razılıq əldə ediblər. Həmçinin ikitərəfli əməkdaşlığın tənzimlənməsi üçün İKT və nəqliyyat məsələləri üzrə vahid işçi qrup yaradılması qərara alınıb.

Ramin Quluzadə Azərbaycanın haqlı müraciətinə cavab olaraq, "Austria Telekom" şirkətinə məxsus Bolqarıstanın "M-Tel" mobil operatorunun Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyət göstərən "Karabakh Telecom"la rouminq sazişini ləğv etməsindən məmnunluğunu ifadə edib.

Görüş zamanı Ramin Quluzadə, həmçinin Bakı şəhərinin 2025-ci ildə "Ekspo" Ümumdünya Sərgisinə ev sahibliyi etməklə bağlı namizədliyi barədə məlumat verib və Avstriyanı namizədliyimizi dəstəkləməyə çağırıb.

AZƏRTAC

# Hyustonda azərbaycanlılar yəhudi icmasına dəstək olub

**Bakı ilə qardaşlaşmış Hyuston şəhərində Azərbaycan icması, ölkəmizin ABŞ-dakı səfirliyi, Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası (AZİZ) və ABŞ Konqresi nümayəndələri Hyustonda yəhudi icmasının ən böyük dini məbədi - Bet Yeşurun sinaqoquna baş çəkib və ötən il Harvi qasırğası nəticəsində zərər görmüş bu məkanda aparılan bərpa işləri ilə tanış olublar.**



Azərbaycan nümayəndə heyətini Bet Yeşurun sinaqoqunun rəhbərliyi, Amerika Yəhudu Komitəsinin Hyustondakı direktoru və digər yerli yəhudi icmasının tanınmış üzvləri qarşılayıb.

Bu məqsədlə təşkil edilmiş tədbirdə Azərbaycan və yəhudi xalqları arasında dostluq ənənələrinə uyğun olaraq, Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyası və Hyustonda Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri İradə Axundova bu sinaqoqun bərpasına maddi yardım təqdim edib və Azərbaycanın hər zaman dostlarının yanında olduğunu vurğulayıb.

Maddi yardıma görə dərin təşəkkürünü bildirən ravvin David Rozen antisemitizmin heç zaman olmadığı Azərbaycanın zəngin multikulturalizm ənənələrini təqdir edib, Azərbaycanın ABŞ və İsrailin yaxın tərəfdaşı olmasına görə təşəkkür edib.

Bu fikirlərlə həmrəy olan ölkəmizin ABŞ-dakı səfirliyinin müşaviri Vüqar Qurbanov yəhudi icmasının Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olduğunu, hər iki xalqın həm çətin, həm də xoş gündə bir-birinə dəstək verdiyini qeyd edib. İsraildə fəaliyyət göstərən AZİZ təşkilatının rəhbəri Lev Spivak Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələri, İsrail-Azərbaycan dostluğunun möhkəmləndirilməsi istiqamətində görülən işlərdən danışıb.

Azərbaycan və yəhudi icmasının nümayəndələri digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıb.

AZƏRTAC

# Almaniyanın Kronberq şəhərində Azərbaycan-Almaniya münasibətlərinə həsr olunmuş tədbir keçirilib

**Almaniyanın Kronberq şəhərində Alman Atlantik Cəmiyyətinin və Schlosshotel Kronberqin birgə təşkilatçılığı ilə "Təhlükəsizlik siyasəti" silsiləsindən növbəti tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan-Almaniya münasibətlərinə həsr olunmuş budəfəki tədbirdə Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov əsas natiq qismində çıxış edib. "Almaniya-Azərbaycan əməkdaşlığının perspektivləri" mövzusunda çıxışı zamanı səfir iki dövlət arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə toxunub, eyni zamanda Azərbaycanın coğrafi mövqeyi, qonşu dövlətlərlə münasibətləri, tarixi, iqtisadiyyatı, mədəniyyəti və regiondakı geosiyasi vəziyyət barədə tədbir iştirakçılarına məlumat verib. O, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən layihələrin bölgənin inkişafına və sabitliyinə töhfə verdiyini bildirib, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı əhəmiyyətli rolunu vurğulayıb.

Səfir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə tədbir iştirakçılarına ətraflı məlumat verib və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının regional təhlükəsizliyə ciddi şəkildə təhdid olduğunu bildirib.

Tədbir daha sonra iştirakçıların ünvanladığı sualların cavablandırılması ilə interaktiv dialoq şəklində davam edib.

Müzakirələrdə siyasi və iqtisadi dairələrinin, həmçinin Almaniya ictimaiyyətinin nümayəndələri iştirak edib.

AZƏRTAC

# Azərbaycanlı diplomat BMT-nin İnsan Hüquqları Şurasının sessiyasında Ermənistanın xarici işlər nazirinə cavab verib

**Azərbaycan Respublikasının Cenevrədə yerləşən beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin birinci katibi Yalçın Rəfiyev BMT-nin İnsan Hüquqları Şurasında Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın Yüksək Səviyyəli Seqmentdə çıxışına cavab hüququndan istifadə edib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

**Yalçın Rəfiyev deyib:** "Yüksək Səviyyəli Seqmentin başlanğıcından etibarən biz müxtəlif dövlətlərin yüksəkvəzifəli nümayəndələri tərəfindən öz ölkələrində insan hüquqlarının qorunması sahəsində əldə edilən nailiyyətlər barədə həvəslə danışmalarını izləyirik. Ermənistanın xarici işlər naziri isə dünənki çıxışının əksər hissəsini öz ölkəsi əvəzinə Azərbaycana həsr etmişdi. Buradan belə bir qənaətə gəlmək mümkündür ki, Ermənistan naziri öz ölkəsində insan hüquqlarının təşviqi və qorunması sahəsində Şura ilə bölüşməyə dəyər bir yenilik tapa bilməyib. Bunun əvəzinə o, çıxışını Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı təkzibolunmaz dəlilləri inkar etməyə, Xocalıda törədilmiş insanlıq əleyhinə cinayətləri təkzib etməyə və Azərbaycanın müstəqillik qazanmasından əvvəlki dövrdə baş verən faciəvi hadisələrlə bağlı yersiz ittihamlarla mənim ölkəmə hücum etməyə həsr edib.

Ölçüyəgəlməz sayda mövcud olan təkzibolunmaz dəlillər sübut edir ki, Ermənistan Azərbaycana qarşı müharibəni başladıb, Azərbaycana hücum edərək Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlar daxil olmaqla onun ərazilərini işğal edib, kütləvi surətdə etnik təmizləmə həyata keçirib və işğal olunmuş ərazilərdə etnik separatçı qurum yaradıb. Müharibənin gedişində Ermənistanın hərbi rəhbərliyi tərəfindən mülki Azərbaycan əhalisinə qarşı ən qəddar beynəlxalq cinayətlər törədilib.

Dünənki çıxışı zamanı Ermənistan naziri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən və artıq 26 ildir Ermənistanın işğalı altında olan Xocalı rayonunun adını çəkib. İcazə verin, 1992-ci ildə Xocalıda nə baş verdiyi barədə iştirakçıları məlumatlandırım. Həmin il fevralın 25-dən 26-na keçən gecə Xocalının günahsız mülki sakinləri Ermənistan hərbi qüvvələri tərəfindən bəşəriyyət tarixinin indiyə qədər görmüş olduğu ən qəddar vəhşiliklərdən birinə və müharibə cinayətlərinə məruz qalıb. Nəticədə qadınlar, uşaqlar və yaşlılar daxil olmaqla 613 azərbaycanlı qətlə yetirilib. Ermənistanın hazırkı prezidenti Serj Sarkisyan Xocalıda törədilən soyqırımında şəxsən iştirak edərək vəhşilikləri törədən qüvvələrə komandanlıq edib. Bu məqamda prezident Sarkisyanın 2003-cü ildə Böyük Britaniyadan olan jurnalist Tomas de Vaala müsahibəsini xatırlatmaq istərdim. Müsahibədə Sarkisyan Xocalı soyqırımını belə xatırlayıb: "Xocalıdan əvvəl azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki insanlara əl qaldıra bilməzlər. Amma biz bu stereotipi sındıra bildik". Bu cümlələrlə Ermənistan prezidenti əslində Azərbaycan tərəfinin müharibə şəraitində olsa belə beynəlxalq humanitar hüquq çərçivəsində qarşı tərəfdən sadəlövh gözləntilərini və sonradan bu gözləntilərdə necə yanıla bildiyini çox gözəl təsvir edib.

Ermənistan naziri çıxışında, həmçinin BMT qurumlarının Dağlıq Qarabağ bölgəsində insan hüquqlarının vəziyyətini qiymətləndirmək üçün əraziyə səfər etməsinin zəruri olduğunu ifadə edib. Bu xüsusda, Ermənistan xarici işlər nazirinə xatırlatmaq istərdim ki, məhz onun ölkəsi tərəfindən həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüquqları kobud şəkildə pozulmuş əhalisinin 1 nəfər belə nümayəndəsi hazırda həmin ərazidə yaşamır. Onlar məcburi köçkün qismində Azərbaycanın işğal altında olmayan digər şəhərlərində yaşayır. Əgər BMT qurumları Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar insan hüquqları pozuntularını qiymətləndirmək niyyətində olsalar onlar Azərbaycanın məcburi köçkünlərinin vəziyyətini öyrənmək üçün Azərbaycana gələ bilərlər.

Ermənistan nazirinin Sumqayıtda baş verən faciəvi hadisələrlə əlaqədar ifadə etdiklərinə gəldikdə isə, iştirakçıların nəzərinə çatdırmaq istərdim ki, SSRİ mərkəzi hakimiyyət orqanları tərəfindən həyata keçirilmiş istintaq tədbirləri nəticəsində Sumqayıtda baş verən hadisələri törədənlər olaraq etnik erməni mənşəli Eduard Qriqoryan və Jirayr Azizbekian müəyyən edilib və onlar digərləri ilə birlikdə hüquqi məsuliyyətə cəlb olunublar. İstintaq zamanı toplanmış materialların təhlili təsdiq edir ki, Sumqayıtda törədilən iğtişaş Azərbaycana qarşı Ermənistan və SSRİ kəşfiyyat qurumları tərəfindən təşkil edilmiş təxribat olub. Bu fakt Ermənistan prezidenti Serj Sarkisyanın 2005-ci il martın 30-da Ermənistan parlamentində keçirilmiş dinləmələr zamanı səsləndirdiyi bəyanatda da öz təsdiqini tapıb: "Sumqayıtda baş verən iğtişaşın və şəhərin erməni sakinlərinin kütləvi qətlinin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin nəzarəti altında törədildiyinə dair kifayət qədər əsaslar var".

Təəssüf ki, beynəlxalq ictimaiyyət Azərbaycanın 1 milyondan artıq qaçqın və məcburi köçkününün hüquqlarının kobud şəkildə pozulmasını illərdir sükutla izləyir. Bununla əlaqədar, mən hazırkı qeydlərimi məşhur bir yazıçıdan sitat gətirməklə beynəlxalq ictimaiyyətə müraciətlə bitirmək istərdim: "Əgər bir haqsızlıq görürsənsə onu görməyə bilməzsən və əgər bu haqsızlığı görüb ona münasibət bildirmirsənsə bu sükut həmin haqsızlıq barədə danışmaq qədər siyasi bir əməldir". Biz bütün dövlətləri Azərbaycanın qaçqın və məcburi köçkünlərinin üzləşdiyi haqsızlıqlara sükutla yanaşmamağa və onların hüquqlarının bərpasına dəstək verməyə çağırırıq".

AZƏRTAC

# Avstraliya Azərbaycanlıları Assosiasiyası Xocalı soyqırımının tanınması üçün bu ölkənin Baş nazirinə müraciət edib

**Avstraliya Azərbaycanlıları Assosiasiyası Xocalı soyqırımının tanınması üçün bu ölkənin Baş naziri Malkolm Ternbula müraciət ünvanlayıb.**

**Bu barədə AZƏRTAC-ın xüsusi müxbirinə Assosiasiyanın prezidenti Mikayıl Oyta məlumat verib.**

Müraciətdə cari il fevralın 26-da erməni silahlıları tərəfindən Azərbaycanın Xocalı şəhərində dinc sakinlərə qarşı törədilən soyqırımının 26-cı ilinin tamam olduğu bildirilir. Qeyd edilir ki, hər il həmin gün Avstraliyada yaşayan azərbaycanlılar bir araya gələrək faciə qurbanlarının xatirəsini anırlar.

Məktubda Baş nazirə 26 il bundan əvvəl erməni yaraqlılarının keçmiş SSRİ-nin 366-cı alayının köməyi ilə Dağlıq Qarabağ regionunda yerləşən Xocalı şəhərinə hücumu barədə ətraflı məlumat verilir. Bildirilir ki, bu, son detallarına qədər dərindən düşünülmüş əsl soyqırımı aktı idi. Erməni yaraqlılarının məqsədi daha çox dinc sakini qətlə yetirmək olub. Bunu beynəlxalq təşkilatların faciə barədə yaydığı məlumatlar da təsdiq edir. Qətlə yetirilənlər arasında 106 qadın, 63 uşaq da var idi ki, onların əksəriyyəti arxadan açılan atəşlə öldürülüb. Erməni yaraqlıları tutduqları əsirlərlə vəhşicəsinə davranaraq onları qətlə yetirməklə kifayətlənməyib, onların gözlərini çıxararaq, hamilə qadınların qarnını deşərək cəsədləri tanınmaz hala salıblar. Hücum zamanı 600-dən çox dinc sakin qətlə yetirilib, 1275 nəfər əsir götürülüb ki, onların 150 nəfərindən hələ də heç bir xəbər yoxdur.

Məktubda Ermənistan prezidenti Serj Sarkisyanın britaniyalı jurnalist Tomas de Vaala müsahibəsi zamanı dediyi sözlər də yer alıb. Bu isə indiki Ermənistan hakimiyyətinin həmin qanlı cinayətdə birbaşa əlinin olmasını bir daha təsdiq edir.

Daha sonra qeyd olunur ki, Xocalı soyqırımı Azərbaycan ərazisinin 20 faizinin işğalı ilə tamamlanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə sıx bağlıdır. Bu qeyri-qanuni işğal isə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi ilə pislənilib, Er-



AUSTRALIAN AZERBAIJANIAN ASSOCIATION (AAA)

Mobile: 0414275956 E-mail: azerbaijanylar@hotmail.com
Tel: 02 9769 0303 PO Box: 1864 Bondi Junction NSW 1355

The Hon Malcolm Turnbull MP
Prime Minister
Parliament House
CANBERRA ACT 2600

27th February 2018

Dear Prime Minister,

RE: KHOJALY GENOCIDE

We write to express our sorrow over the 26th anniversary of the Khojaly Genocide committed by Armenian forces on 26 February 1992. Each year on the 26th of February, the Australian Azerbaijan community pauses to remember the victims of war crimes and ethnic cleansing, which occurred on an unsuspecting civilian population in the town of Khojaly in Azerbaijan.

On 26 February 1992, backed by Russian forces, Armenian militants commenced a deadly assault the Azerbaijani town of Khojaly near the illegally occupied region of Nagorno Karabakh. This was a cold and calculated attack.

Reports show that Armenian militants raided the town with the intent to kill as many civilians as possible. Families were trapped in their homes and burnt alive while The Human Rights Watch reported in 1993 that the death toll included 106 women and 83 children, many of whom were shot in the back while fleeing the attack. The Armenian forces spared virtually none of the civilians who could not flee from Khojaly and surrounding areas. Armenian militants mutilated dead bodies by gorging out eyes, cutting off women's breasts, and bayoneting pregnant women in the abdomen. As a result of the assault, over 600 civilians were killed, in addition to over 487 civilians (including children) who were seriously wounded, and over 1,275 people were taken hostage by Armenians forces, while the fate 150 people remains unknown to this day.

The President of Armenia, Serzh Sargsyan, has expressed a lack of remorse in an interview with British journalist Thomas de Waal in December 2000 where he brazenly stated, "Before Khojaly, the Azerbaijanis thought that the Armenians were people who could not raise their hands against the civilian population. We were able to break that [stereotype]."

mənistan qoşunlarının işğal edilmiş ərazilərdən qeyd-şərtsiz çıxarılması tələb edilib. Lakin bu qətnamələr hələ də həyata keçirilməmiş qalır.

Məktubda dünyanın hər yerində geniş yayılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası barədə ətraflı məlumat verilir.

Sonda bir daha Baş nazirə müraciət edən soydaşlarımız ondan Xocalı soyqırımının Avstraliya hökuməti tərəfindən rəsmən tanınmasını xahiş edirlər.

AZƏRTAC

# Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti açıq müsabiqə elan edilir



**Azərbaycanda uğurla həyata keçirilən dövlət siyasətinə uyğun olaraq, ədliyyə orqanlarında gənclər geniş təmsil olunur, onlara xüsusi qayğı ilə yanaşılır, işlə təminatı daim diqqətdə saxlanılır. Son illər 2500-ə yaxın gənc şəffaf seçimlər əsasında ədliyyə orqanlarına qulluğa qəbul olunublar.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu gün ədliyyə sistemində çalışan işçilərin təxminən yarısını gənclər təşkil edirlər. Onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər.

Hazırda Müsabiqə Komissiyası tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"yə müvafiq olaraq, növbəti açıq müsabiqə elan edilir. Müsabiqə üzrə vakant vəzifələr əsasən probasiya, icra və qeydiyyat sahələrində, habelə regional ədliyyə idarələrindədir.

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verən ali hüquq təhsilli Azərbaycan Respublikası vətəndaşları müsabiqəyə dəvət olunur.

Müsabiqənin birinci mərhələsində - test imtahanında iştirak üçün müraciətlərin qəbulu nazirliyin əhaliyə göstərdiyi "Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı müsabiqədə iştirak üçün namizədin qeydə alınması" adlı elektron xidmət vasitəsilə həyata keçirilir. Ərizələr poçt vasitəsilə də göndərilə bilər.




Müsabiqədə iştirak etmək arzusunda olan hüquqşünaslar 2018-ci il martın 1-dən etibarən nazirliyin internet səhifəsindən *(www.exidmet.justice.gov.az)* və ya "Elektron hökumət" portalından *(www.e-gov.az)* qeyd olunan elektron xidmət vasitəsilə ərizə formasını doldurmalı və təsdiq etməlidirlər. Qeydiyyata alınmış bütün namizədlərin fərdi elektron kabinetləri yaranır və onlar müraciətlərinin qəbulu ilə bağlı məlumatlandırılır. Namizəd müsabiqənin gedişi və nəticələri barədə məlumatları kütləvi informasiya vasitələri ilə yanaşı, elektron kabinetindən də əldə edir.

Test imtahanından uğur qazanmış namizədlərin digər zəruri sənədlərinin toplanması və yoxlanılması bu mərhələdən sonra həyata keçiriləcək və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər ikinci mərhələyə - söhbətə buraxılacaqlar.

İmtahana hazırlıqla bağlı "Yaddaş kitabçası" nazirliyin internet səhifəsində "Qulluğa qəbul" bölməsində və namizədlərin elektron kabinetlərində yerləşdiriləcək, habelə bu sənədlər yerli ədliyyə qurumlarına müraciət edənlərə təqdim olunacaq.

Builki müsabiqədə iştirak edən hüquqşünaslar üçün də test imtahanına və söhbət mərhələsinə mükəmməl hazırlaşmalarına və yüksək nəticələr əldə etmələrinə köməklik məqsədilə Nazirliyin Ədliyyə Akademiyasında ödənişsiz hazırlıq kursları təşkil ediləcək.

Test imtahanının vaxtı və yeri, habelə hazırlıq kursunun keçirilməsi barədə əlavə məlumat veriləcək.

Nazirliyin internet səhifəsindən, eləcə də (012) 538-01-62, 537-05-90 nömrəli telefonlar vasitəsilə bütün suallarla bağlı operativ informasiya almaq olar.

**AZƏRTAC**

# İzmirdə ulu öndər Heydər Əliyevin büstünün açılışı olub



**Türkiyənin İzmir şəhərinin Karşıyaka rayonundakı Heydər Əliyev Parkında Ulu Öndərin büstünün açılışı olub.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində rəsmi şəxslər, millət vəkilləri, yerli ictimaiyyətin tanınmış nümayəndələri, QHT və KİV təmsilçiləri, o cümlədən Qarabağ müharibəsi qazileri iştirak ediblər.

Əvvəlcə Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib.

Ulu öndər Heydər Əliyevin və bütün şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunub.

Sonra Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev, millət vəkilləri Qənirə Paşayeva və Sona Əliyeva, Karşıyaka rayonun bələdiyyəsinin sədri Hüseyin Mutlu Akpınar, İzmirdəki Azərbaycan Mədəniyyət və Dayanışma Dərnəyinin sədri Mülazim Pahsa və başqalarının çıxışları dinlənilib.

Çıxışlarda ümummilli lider Heydər Əliyev şəxsiyyətinin ucalığından, Ulu Öndərin Azərbaycan və Türkiyənin inkişafı naminə həyata keçirdiyi beynəlxalq layihələrin əhəmiyyətindən, xalq arasında tükənməz nüfuzundan danışılıb. Vurğulanıb ki, yüksək şəxsi keyfiyyətləri ilə el məhəbbəti qazanan Heydər Əliyev təxminən yarım əsrə yaxın dövrü əhatə edən siyasi fəaliyyətinin Azərbaycanın inkişafına və yüksəlişinə sərf edib. Gördüyü böyük tarixi işlərin nişanələri əsrlərə yadigardır.

Qeyd edək ki, Karşıyaka rayonun bələdiyyəsi və İzmirdəki Azərbaycan Mədəniyyət və Dayanışma Dərnəyi arasında əldə olunan razılıq əsasında mövcud Heydər Əliyev Parkı yenidən qurulub və burada Ulu Öndərimizin büstü qoyulub.

**AZƏRTAC**

# Azərbaycan Məktəb İdmanları Federasiyasının təqdimat mərasimi keçirilib





**Martın 1-də Milli Olimpiya Komitəsində Azərbaycan Məktəb İdmanları Federasiyasının (AMİF) təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev, təhsil nazirinin müavini Firidun Qurbanov, Milli Məclisin deputatı, Azərbaycan Məktəb İdmanları Federasiyasının prezidenti Sevinc Hüseynova, Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov, AFFA-nın baş katibi Elxan Məmmədov və digər şəxslər iştirak ediblər.

AMİF-in prezidenti S.Hüseynova tədbirdə çıxış edərək Azərbaycanda idmanın inkişafından danışıb. O, ölkəmizdə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət idman siyasətinin bu gün uğurla həyata keçirildiyini vurğulayıb. Federasiya prezidenti idmanın məktəblərdə geniş tətbiq edilməsinin vacibliyini qeyd edərək deyib ki, AMİF-in yaradılmasının əsas məqsədi məhz budur. 2017-ci ildə təsis edilən Azərbaycan Məktəb İdmanları Federasiyası Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçib. Beynəlxalq Məktəb İdmanı Federasiyası (BMİF) idmanın 43 növünü əhatə edir. Azərbaycanda isə 10-dan çox idman növü AMİF-in proqramına daxildir. S.Hüseynova AMİF-in yaradılmasına və fəaliyyətinə göstərilən dəstəyə görə Gənclər və İdman, Təhsil nazirliklərinə minnətdarlığını bildirib.

Sonra Beynəlxalq Məktəb İdmanı Federasiyası (BMİF) ilə bağlı videoçarx nümayiş olunub. Bildirilib ki, BMİF 1972-ci ildə Avropanın 21 ölkəsinin təşəbbüsü ilə təsis edilib. Təşkilatın əsas məqsədi məktəblərdə idmanın və sağlam həyat tərzinin təbliği üçün beynəlxalq yarışların təşkil edilməsidir.

Gənclər və idman naziri Azad Rəhimov çıxışında bildirib ki, AMİF Azərbaycanda yaradılan 84-cü idman federasiyasıdır. Federasiyanın fəaliyyətə başladığı gündən uğurlu və səmərəli fəaliyyət göstərdiyini diqqətə çatdıran nazir deyib: "Qarşıda böyük beynəlxalq yarışlar var. Məktəblilərimiz əvvəlki dövrlərdə belə yarışlarda iştirak ediblər. Onlar bundan sonra AMİF vasitəsilə daha çox turnirə qatılacaq və uğurlar qazanacaqlar. İdmançılarımız məktəb yaşlarından formalaşmağa başlayırlar. AMİF həm məktəblilərimizin sağlam həyat tərzi, həm də gələcək idmançılarımızın yetişməsi üçün vacib funksiya yerinə yetirir. Federasiyanın işinə Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və digər qurumlarımız fəal dəstək göstərəcəklər. AMİF-ə uğurlar arzulayıram".

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə vurğulayıb ki, idmanın inkişafı hər bir ölkədə məktəb idmanının səviyyəsindən asılıdır. "Azərbaycanda məktəblərdə "Olimpiya hərəkatı" layihəsi həyata keçirilir. Bu layihədə minlərlə şagird iştirak edib. AMİF-in yaradılması da şagirdlər arasında idmanın inkişafına təkan verəcək. Federasiyanın iş planları digər federasiyalara da bildirilməlidir ki, onlar da qarşıdakı mötəbər yarışlara hazırlaşa bilsinlər. Yeganə amalımız yeniyetmələr və gənclərin sağlam olmaları, məktəblərdə idman dərslərinin yüksək səviyyədə keçirilməsidir. MOK bu işdə hər zaman öz dəstəyini göstərməyə hazırdır".

Təhsil nazirinin müavini Firidun Qurbanov AMİF-in yaradılmasının ölkəmizin həyatında mühüm ictimai hadisə olduğunu qeyd edib. Azərbaycanda idmanın inkişafına yüksək diqqət və qayğı göstərildiyini vurğulayan nazir müavini AMİF-in uğurla fəaliyyət göstərəcəyinə əminliyini bildirib. Orta məktəblərdə idmanla bağlı layihələrin uğurla həyata keçirildiyini diqqətə çatdıran F.Qurbanov "Olimpiya hərəkatı" proqramının əhəmiyyətini yüksək qiymətləndirib və belə tədbirlərin gələcəkdə də təşkilinin vacibliyini söyləyib.

Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov AMİF-ə və federasiyanın prezidenti S.Hüseynovaya uğurlar arzulayaraq qurumun yaradılmasının önəmini vurğulayıb. Komitə sədri AMİF-in fəaliyyətinin paytaxtla yanaşı, regionlarda da səmərəli təşkil edilməsinin diqqət mərkəzində saxlanılmasının vacibliyini bildirib.

**AZƏRTAC**

# MƏCBURİ KÖÇKÜNLƏR TİBBİ MÜAYİNƏDƏN KEÇİRİLMİŞDİR

Son 4 ildə ölkə Prezidentinin tapşırığı ilə Azərbaycan vətəndaşlarının pulsuz tibbi müayinədən keçirilməsi geniş xalq kütləsi tərəfindən böyük razılıqla qarşılanmışdır. Gəncə şəhərində də bu nəcib aksiya sözün əsl mənasında böyük mütəşəkkilliklə keçirilir.

**Gəncə Şəhər Səhiyyə İdarəsinin rəisi, professor Əlikram Məmmədovdan** bu haqda məlumat verməyini xahiş etdik. O qeyd etdi ki, Azərbaycan səhiyyəsinin, tibb elmi və tibb təhsili sisteminin bütün ağırlıqlarını öz çiyinləri üzərinə götürərək onu inkişaf etdirən və gələcək perspektivlərini müəyyənləşdirən, bütün sahələrdə fenomenal biliklərə malik olan dahi Heydər Əliyev dəstxətti, qüdrəti, öz möhtəşəmliyi ilə Azərbaycan səhiyyəsinin inkişafının təməlini qoymuşdur. Ulu öndərin siyasi kursunun layiqli davamçısı, praqmatik dövlət başçısı cənab İlham Əliyevin səhiyyə sferasında həyata keçirdiyi proqramlar, islahatlar və müayinə aksiyaları, sözün əsl mənasında respublika əhalisinin sağlamlığına diqqət və qayğının bariz nümunəsidir. Tibb müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsinin, təchizat və kadr hazırlığı ilə bağlı görülmüş işlərin bəhrəsini bu gün hər birimiz öz həyatımızda hiss edirik.

Ölkə Prezidentinin tapşırığına uyğun olaraq ötən illərdə olduğu kimi bu il də 12 fevraldan respublikada əhalinin tibbi müayinələrdən keçirilməsinə başlanılıb. 23 fevral 2018-ci il tarixdə, Xocalı soyqırımının 26-cı ildönümü ərəfəsində Gəncə şəhərində salınan Yeni qəsəbə - 2-də yaşayan əsasən Xocalı rayonundan olan məcburi köçkünlərin və qəsəbənin əhalisinin tibbi müayinəsi keçirilib. Bu tədbirə hazırlıq məqsədilə 16 fevralda Şəhər İcra Hakimiyyətinin və aidiyyəti tibb müəssisələrinin rəhbər işçilərinin iştirakı ilə xüsusi müşavirə keçirilmiş, əhali məlumatlandırılmışdır.

Qəsəbədə Xocalı rayonundan 1328 nəfər yaşayır, bundan 441 nəfəri uşaqlardır.

Tibbi-profilaktik baxış üçün avadanlıq və aparatlarla təminata, səyyar rentgenoflüoroqrafik, ultrasəslə müayinə (USM), elektrokardioqrafik (EKQ) və laborator müayinələrin aparılmasına terapevt, pediatr, cərrah, uşaq cərrahı, nevropatoloq, oftalmoloq, infeksionist, ftiziatr, LOR-həkim, endokrinoloq, onkoloq, dermatovenerolog və digər ixtisasdan olan həkimlərin iştirakına xüsusi diqqət yetirilir. Bütün qadınlara mama-ginekoloji baxışlar təmin edilir.

Tibbi müayinələr zamanı məktəbin binasında qəsəbənin sakinləri üçün müasir müalicə prinsipləri mövzusunda mühazirə oxunmuşdur.

Yeni qəsəbədə 1067 nəfərdən çox sakinə baxış, müayinə və məsləhətlər verilmişdir. 6 sakinə evində konsilium edilmişdir. Səyyar rentgenoflüoroqrafik müayinələrin sayı 647, elektrokardioqrafik 114, ultrasəslə müayinələrin sayı 98, laborator müayinələrin sayı 238 olmuşdur. 93 şəxsə ambulator müalicə təyin edilmişdir. 14 şəxs stasionar müayinə və müalicə üçün Gəncə şəhərinə dəvət olunmuşdur.



Əhalinin tibbi müayinələri 12 may 2018-ci il tarixədək davam edəcəkdir. Aparılan genişmiqyaslı sağlamlıq aksiyası bir daha ölkə Prezidentinin əhaliyə diqqət və qayğısının bariz nümunəsidir.

Gəncə əhalisi, Xocalı və Kəlbəcər rayonunun məcburi köçkünləri səhiyyədə aparılan islahatlara, sağlamlığın qorunmasına və keyfiyyətli xidmətə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirirlər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Xocalı soyqırımı anıldı

Xocalı faciəsi bəşər tarixində bizə məlum olan Sonqmi, Liditse, Xatın, Xirosima faciələri ilə eyni səviyyədə durur.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni qəsbkarları Xocalıda elə bir ağlasığmaz vəhşilik törətdilər ki, tarix hələ belə azğınlıq görməmişdi. Şəhər yerlə-yeksan edildi, yüzlərlə günahsız insan qanına qəltan edildi.

Bu günlərdə Sumqayıt şəhər 42 nömrəli tam orta məktəbin iclas salonunda Xocalı faciəsinin 26-cı ildönümü ilə əlaqədar "Dünya, Xocalıya ədalət!" devizi ilə tədbir keçirilmişdir.

Tədbiri məktəbin direktoru Şahsənəm Məmmədova açdı. Tədbir Dövlət Himninin ifası Heydər Əliyevin Xocalı haqqında sözlərinin görüntülü təsviri ilə başladı.

Tədbirdə Sumqayıt Şəhər Veteranlar Təşkilatının sədri Leyla Qasımzadə, təşkilatın sədr müavini Tamara Ruhullayeva, Sumqayıt Şəhər Təhsil Şöbəsi Veteranlar Təşkilatının sədri M.Zeynalov, Respublika DİN-in Daxili Qoşunlarının veteranlar təşkilatının üzvü, Sabunçu Rayon Veteranlar Təşkilatının sədri Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Elxan Xəzər, Qarabağ Müharibəsi veteranı Respublika Daxili Qoşunlar Veteranlar təşkilatının sədri Çingiz Daşdəmirov və Yaqut Atakişiyeva da çıxış edərək Xocalıda erməni qəsbkarlarının xüsusi amansızlıqla törətdikləri, misli görünməmiş qanlı cinayətlərdən, köməksiz əliyalın mülki insanlara divan tutulmasından və şəhəri qəhrəmanlıqla müdafiə edən şəhid olmuş xocalılıların şücaətlərindən söhbət açdılar.

Tədbirdə Xocalı haqqında şeirlər, səhnəciklər səsləndi.

5-ci sinif şagirdləri Nuray Abdullayeva, Nərmin Nərminli, Sofiya Hüseynova, Ləman Cavidan, IX sinif şagirdləri Aytəkin Həsənova, Ayşən Ağayeva və başqaları tədbirdə fəal çıxış etdilər.

Vətənpərvərlik mahnıları ifa olundu. Xocalı faciəsinin canlı şahidi Əmrah Hüseynov öz xatirələrini danışdı.

5-ci sinif şagirdlərinin hazırladıqları bədii kompozisiyanın nümayişindən sonra "Dünya, Xocalıya ədalət!" adlı fləşmob keçirildi.

Xocalı faciəsini əks etdirən fotolar, videoçarxlar və şair-publisist Əvəz Mahmudun Lələdağın "Xocalı harayı" adlı poemasının motivləri əsasında çəkilmiş qısametrajlı film nümayiş etdirildi.

**Məşdi ZEYNALOV,**
**Sumqayıt Şəhər Təhsil Şöbəsinin Veteranlar Təşkilatının sədri.**

# Tikinti sektorunda qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması istiqamətində tədbirlər keçirilib

**Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi ölkə vətəndaşlarının hüquqlarının qorunması, tikinti sektorunda qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması, bu sahədə qanunvericiliyin tələblərinə dönmədən riayət olunmasının təmin edilməsi istiqamətində digər dövlət qurumları ilə əlaqəli şəkildə tədbirlər həyata keçirir.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən tikinti sektorunda aparılmış monitorinqlər nəticəsində əmək müqavilələri olmadan işçilərin işə cəlb edilmələri faktları ilə bağlı 19 hüquqi və 3 fiziki şəxs barəsində həmin Agentlikdən daxil olmuş 18 material Baş İdarədə araşdırılıb.

Aparılmış araşdırmalar nəticəsində 3 hüquqi şəxs barəsində Cinayət Məcəlləsinin 162-1.1-ci (əmək müqaviləsi hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işləri başlanıb. "İ.N.V." MMC-nin vəzifəli şəxsləri barəsində istintaq edilən cinayət işinin istintaqı başa çatdırılaraq baxılması üçün aidiyyəti məhkəməyə göndərilib. Digər iki hüquqi şəxs barəsində başlanmış cinayət işləri üzrə istintaq yekunlaşmaq üzrədir.

Bununla yanaşı, araşdırmalar zamanı aşkarlanan qanun pozuntuları ilə bağlı digər prokuror təsir aktları da tətbiq edilib. Belə ki, 11 hüquqi şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (əmək qanunvericiliyinin pozulması), 1 hüquqi şəxs barəsində isə həmin Məcəllənin 198.0.1-ci (əməyin mühafizəsi qaydalarının pozulması) maddələri ilə inzibati icraatın başlanması haqqında qərarlar qəbul olunub. Toplanmış materiallar baxılması üçün aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə göndərilib, 12 halda fiziki şəxslərə və hüquqi şəxslərin rəhbərlərinə rəsmi xəbərdarlıq edilib. Yol verilmiş qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədilə Vergilər Nazirliyinə 9, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə isə 11 təqdimat göndərilib. Hazırda 5 hüquqi və 2 fiziki şəxs barəsində araşdırmalar davam etdirilir. Araşdırmalar zamanı aşkarlanan faktlar üzrə əvvəllər əmək müqaviləsi olmadan işə cəlb edilmiş işçilərlə əmək müqavilələrinin bağlanması təmin olunub.

Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi qeyri-rəsmi məşğulluğun qarşısının alınması, əmək münasibətlərinin rəsmiləşdirilməsinə nəzarətin gücləndirilməsi və vətəndaşların əmək hüquqlarının müdafiəsi istiqamətində aidiyyəti dövlət qurumları ilə əməkdaşlığı bundan sonra da davam etdirəcək.

**AZƏRTAC**

# Bakıda saxta sənədlərin identifikasiyası mövzusunda təlim işə başlayıb

**BMT-nin Miqrasiya Agentliyi olan Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı nümayəndəliyinin və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində martın 1-də Azərbaycanın bir sıra dövlət qurumlarının əməkdaşları üçün saxta sənədlərin identifikasiyası mövzusunda ikigünlük təlim işə başlayıb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

2014-cü il sentyabrın 1-dən etibarən Avropa İttifaqının əsas, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin, ABŞ Dövlət Departamentinin Əhali, Qaçqınlar və Miqrasiya Bürosunun və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin müştərək maliyyə dəstəyi ilə həyata keçirilən "Azərbaycanda miqrasiya və sərhəd idarəçiliyi üzrə potensialların gücləndirilməsi" layihəsi çərçivəsində təşkil olunmuş təlimdə Nazirlər Kabinetinin, Xarici İşlər, Daxili İşlər, Müdafiə və Ədliyyə nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Xarici Kəşfiyyat və Dövlət Miqrasiya xidmətlərinin, eləcə də Dövlət Gömrük Komitəsinin əməkdaşları iştirak edirlər.

Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Xarici İşlər Nazirliyinin konsulluq idarəsinin rəisi, səfir Faiq Bağırov təlimin əhəmiyyəti barədə danışıb. O, saxta sənədlərin, xüsusilə səyahət sənədlərinin və vizaların saxtalaşdırılmasının qarşısının alınması üçün preventiv tədbirlərin həyata keçirilməsi, həmin sənədlərin identifikasiyası sahəsində Azərbaycan Respublikasının dövlət qurumlarının potensialının gücləndirilməsi üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsinin, eləcə də beynəlxalq ekspertlərin iştirakı ilə təlimlərin təşkil olunmasının vacibliyini vurğulayıb. Bu xüsusda, təlimin təşkilinə görə BMqT-nin Azərbaycan Respublikasındakı nümayəndəliyinə təşəkkürünü bildirən F.Bağırov bu sahədə gələcəkdə birgə silsilə tədbirlərin təşkil olunacağına ümid etdiyini söyləyib.

BMqT-nin Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprak saxta sənədlərin istifadəsinə qarşı mübarizənin gücləndirilməsi üçün qarşılıqlı əməkdaşlığın, BMT-nin və müvafiq qurumların birgə fəaliyyətinin zəruri olduğunu deyib. Dövlət qurumlarının nümayəndələrinin təlimdə iştirakını müsbət qarşılayan S.Aktoprak təlimdə iştirak edəcək Avstriyadan olan ekspertlər barədə məlumat verib.

Tədbir zamanı səyahət sənədlərinin təhlükəsizlik elementləri, çap texnikaları, bu sahədə biometrik məlumatların tətbiqi və saxta sənədlərlə bağlı aktual trendlər kimi vacib mövzularda təqdimatlar olacaq. Təlim iştirakçılarına saxta sənədlərin identifikasiyası mövzusunda maarifləndirmə materialları təqdim olunub.

**AZƏRTAC**

# ORTA ƏSR ABİDƏLƏRİNİN MƏTNŞÜNASLIQ VƏ DİLÇİLİK BAXIMINDAN TƏDQİQİ

Şərqşünas alim, akademik M.Nağısoylu orta əsr Azərbaycan-türk tərcümə abidələrinin aşkara çıxarılması, nəşri və tədqiqində, şərq dünyasının sahib olduğu milli-mənəvi dəyərlər kodeksi olan əsərlərin fars dilindən tərcüməsində yeni bir ədəbi məktəb yaratmışdır. Onun elmi fəaliyyətinin əsasını farsdilli qaynaqlar təşkil etsə də, tədqiqat materialları üçün seçdiyi sahə və istiqamətlər daha genişmiqyaslı bir sahəni əhatə edir. Bu istiqamətdə apardığı tədqiqatlarda tərcümə tarixi, klassik tərcümənin özünəməxsus xüsusiyyətləri ilə yanaşı, mətnşünaslıq, ədəbiyyat tarixi və dilçilik məsələləri də əsas yer tutur və bu yöndə gələcəkdə aparılacaq araşdırmalar üçün zəmin yaradır. Bütün bunlar nəzərə alınaraq M.Nağısoylunun Azərbaycan tərcümə sənətinin tarixinə həsr olunmuş tədqiqatlarını özündə əks etdirən “Seçilmiş əsərləri” 2 cilddə (Bakı, Elm, 2017) Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə nəşr edilmişdir. Nəşr olunan bu cildlər orta əsr Azərbaycan tərcümə əlyazmalarının mətnşünaslıq və tərcüməşünaslıq baxımından tədqiqində mühüm əhəmiyyətə malikdir.

Bu baxımdan M.Şəbüstəri dühasının bilik üfüqlərinin genişliyini XX əsrdə bizə çatdıran, Azərbaycan oxucusunu öz dəyərli oğlu ilə yenidən qovuşduran, Azərbaycan əlyazmalarına ikinci həyat verən görkəmli mətnşünas, dilçi-şərqşünas M.Nağısoylu olmuşdur. M.Şəbüstərinin “Gülşəni-raz” əsərini türkcəyə ilk klassik tərcüməsini həyata keçirən, Şirazinin əsərini tədqiq edən M.Nağısoylu yalnız tərcümə ilə qənaətlənməmiş, əsərin ilk müəllifi və ona yazılmış digər şərh və tərcümələri də təhlil etmişdir. M.Nağısoylu Şərq fəlsəfi fikrinin əvəzsiz qaynaqlarından olan tərcüməni Türk-Azərbaycan ədəbiyyatında təsəvvüf simvollarını açıqlayan ilk əsər kimi tədqiqata cəlb etmişdir. Araşdırma zamanı bütün bu məsələləri incəlikləri ilə təhlil edən şərqşünas alim tərcümənin dil-üslub xüsusiyyətlərini müəyyənləşdirmiş, eyni zamanda M.Şəbüstərinin farsca orijinalı ilə türkcə tərcümənin tekstoloji müqayisəsini apararaq orijinalın fars dilinin xırdalıqlarını mükəmməlcəsinə əks etdirməsini, eyni zamanda türkcə tərcümənin birəbir hərfi tərcümə deyil, müəllif təxəyyülü və düşüncəsinin sərbəst ifadəsi olduğunu nəzərə çatdırmışdır. Bölmə-bölmə statistik təhlilin nəticəsindən aydın olur ki, Şirazi tərcümə zamanı mövzu ilə bağlı öz əlavələrini verməyə, mövzu ətrafında poetik tərcümələr etməyə, mümkün qədər hər hansı bir məsələni daha geniş izah etməyə çalışmışdır. Nəticə etibarilə orijinaldan daha geniş, lakin məzmun etibarilə üst-üstə düşən, “sərbəst yaradıcı poetik tərcümə” meydana çıxmışdır. Əsərlə bağlı tədqiqatın dəyəri onunla bağlıdır ki, o yalnız mətnşünas kimi deyil, həm də dil tarixçisi və ədəbiyyatşünas kimi əsəri araşdırmış, tərcümə tarixində özünəməxsus yer tutan əlyazmanın dilinə, rəngarəng poetik yeniliklərə, dilin daxili imkanlarından istifadə məsələlərini aydınlaşdırmışdır.

Əsərin dilində işlənən çoxsaylı qədim, nadir türkmənşəli sözlərin digər əsərlərdə, müasir Azərbaycan dili və onun dialektlərində işlənilməsi, sözlərin tarixən keçdiyi semantik inkişafı zəngin faktlarla araşdırılmışdır. Əsərdə müasir Azərbaycan dili üçün arxaikləşmiş, unudulmuş sözlərin qədim türk mətnləri ilə müqayisəli şəkildə tədqiqi, geniş etimoloji təhlili verilmişdir. Müəllif özü bunu belə izah edir ki, bu dövrdə türkcənin nüfuzunun artması, doğma dildə yazan şairlərin çoxalması həm də onunla sonuclanır ki, ərəb və fars dillərində qələmə alınmış ayrı-ayrı əsərlər dilimizə çevrilir, beləliklə də milli ədəbiyyatımız və ədəbi dilimiz daha da zənginləşir. Bu fakta əsaslanaraq alim XV əsrin digər dəyərli tərcümə əsəri olan Əhmədinin “Əsrarnamə” tərcüməsinin də elmi-tənqidi, filoloji təhlilini vermişdir. Əslində bu iki tərcümə bir-biri ilə bağlı əsərlərdir. Hər ikisinin sufi elminin görkəmli nümayəndələri olan Şəbüstəri və F.Əttarın təsəvvüf görüşlərini əks etdirən fars dilində qələmə alınmış əsərlər olması, hər iki əsərin tərcüməsi ümumxalq danışıq dilinə yaxın sadə bir dillə qələmə alınması və uzun əsrlər boyu geniş şəkildə yayılıb çoxsaylı nüsxələr şəklində kitabxana və muzeylərdə saxlanılması onları bir nöqtədə birləşdirir. M.Nağısoylu bu baxımdan eyni dövrün məhsulu olan “Əsrarnamə”ni də tədqiqata cəlb edərək XV əsr klassik tərcümə sənətinin özünəməxsus cəhətlərini müəyyən etmiş, həmin dövrün dil xüsusiyyətlərini yeni linqvistik faktlar əsasında araşdırmışdır.

Əsasən Bakı nüsxələri əsasında tədqiqat aparan tədqiqatçı, həm əsərin orfoqrafik-fonetik, qrammatik, leksik xüsusiyyətlərini, həm də nüsxələrin yazıya alındığı mövcud şəraitdəki dil-üslub xüsusiyyətlərini üzə çıxarmışdır. XVIII əsrin əvvəllərində və XIX əsrdə qələmə alınmış nüsxələr “Əsrarnamə”nin yazıldığı XV əsrin və XVIII-XIX əsrlərin dil faktlarının daşıyıcısına çevrilir. Nüsxələrdəki mövcud dil faktlarını toplayan tədqiqatçı haqlı olaraq yazır ki, “Əsrarnamə” tərcüməsinin ikinci Bakı nüsxəsi qədim əlyazmadan köçürüldüyünü düşünmək olar. Əhmədinin qələmə aldığı tərcümənin dil xüsusiyyətlərinin öyrənilməsi orta yüzilliklərdə Azərbaycanda tərcümə sənətinin başlıca səciyyəvi cəhətlərinin aşkara çıxarılması baxımından çox əhəmiyyətlidir. Bir tərcüməçi-şərqşünas kimi orta əsr tərcümə nümunəsini bu yöndən araşdıran alim nəticədə müəyyən etmişdir ki, orta əsrlərin digər poetik tərcümə nümunələri kimi, burada da klassik tərcümə sənətinin sərbəst-yaradıcı növünə xas olan cəhətlər daha qabarıq şəkildə özünü göstərir. Əhmədi də Şirazi kimi bir sıra hallarda orijinal mətnə sadiq qalmağa, onu dəqiq çevirməyə səy göstərsə də, əksər hallarda sərbəst-yaradıcı tərcüməyə meyilli olmuş, yeri gəldikcə tərcümənin mətninə öz kiçik əlavələrini də daxil etmişdir. Demək olar ki, bütün tərcümə boyu müşahidə olunan tərcüməçi əlavələri farsca mətnin məzmununun genişləndirilməsi-







nə, onun daha maraqlı və anlaşıqlı olmasına, bəzi hallarda isə orijinalda təsvir olunan hadisələrin müəyyən mənada məntiqi davamına xidmət edir. Bunun da nəticəsində Əhmədinin Əttardan tərcümə etdiyi mənzum hekayətlərin çoxu orijinallarından həcminin böyüklüyü ilə seçilir. Bütövlükdə götürdükdə isə, Əhmədinin öz ustadı saydığı Əttarın əsərlərindən tərcümə etdiyi mənzum hekayətlərin çoxu məzmun baxımından onların farsca orijinalları ilə üst-üstə düşür. Tərcümə ilə farsca orijinalların mətnləri arasında müşahidə olunan həcm fərqi isə, klassik Şərq, o cümlədən Azərbaycan tərcümə sənətinə xas olan ənənə və xüsusiyyətlərlə bağlıdır və həmin dövrün digər tərcümə örnəkləri üçün də səciyyəvidir.

Qeyd etmək lazımdır ki, şərqşünas alim Möhsün Nağısoylu hər hansı bir əsərin tərcüməsi zamanı müəllif ilk öncə orijinal mətni filoloji tədqiqata cəlb edir, onun yazılma tarixi və nüsxələri, başqa tərcümə variantları haqqında geniş məlumat verir, elmi-nəzəri baxış süzgəcindən keçirir. Bu baxımdan çoxsaylı kitab, dərslik və monoqrafiyaların tərtibçisi və tərcüməçisi olan müəllif sanballı və çoxşaxəli elmi fəaliyyəti Azərbaycan dilçilik elminin parlaq səhifələrindən biridir. Alimin tədqiq etdiyi əsərlərdən biri də “Şühədanamə”dir. Xorasanlı Hüseyn bin Əli Vaiz Kaşifinin məşhur “Rövzətüş-şühəda” əsərinin tərcümələrindən biri olan “Şühədanamə”nin mütərcimi Məhəmməd bin Hüseyn Katib Nişatidir. Akademik Nişatinin kimliyi ilə bağlı tədqiqat apararaq sübut edir ki, mütərcimliklə yanaşı, xəttatlıqla məşğul olan Nişati eyni zamanda Şah İsmayıl Xətainin “Divan”ının Paris Milli Kitabxanasında saxlanılan əlyazmasının katibidir. “Şühədanamə”, “Şeyx Səfi Təzkirəsi” əlyazmaları ilə Divan”ın xətlərinin müqayisəsi əsasında müəllif bu qənaətə gəlir ki, hər üç əsər eyni xəttat tərəfindən köçürülmüşdür. Xətai “Divan”ının bu nüsxəsində cənub və şərq dialekt xüsusiyyətlərinin qabarıq şəkildə nəzərə çarpması, nüsxədə əlavə üç dini şeirin Şühədanamədəki şeirləri xatırlatması “Divan”ın xəttatının Şirazlı Nişati olduğunu sübut edir. Mahir xəttat və mütərcim olan Nişatinin söz ustadı kimi məharəti “Şühədanamə” tərcüməsində üzə çıxır. “Rövzətüş-şühəda” kimi Dibaçə və on babdan ibarət olan “Şühədanamə” Şah Təhmasibin “əmrü işaratı” və Şiraz hakiminin göstərişi ilə “parsi dilindən türki”yə çevrilmişdir. Özünü “müsənnif” (yazıçı, müəllif) əsərini təsnif adlandıran Nişatinin “Şühədanamə”sini “Rövzətüş-şühəda” ilə müqayisəli şəkildə təhlil edən akademik M.Nağısoylu bu qənaətə gəlir ki, Nişatinin “qamu özününüdür ki, qılupdur mənzum” ifadəsi heç də özünü doğrultmur. Çünki, “istər bütövlükdə “Şühədanamə”nin əsasını təşkil edən nəsr hissəsi, istərsə də nəsr arası verilən şeir parçaları heç də Nişatinin yazdığı kimi özünün deyil, farsca mətnin tərcüməsidir”.

Əsərin paleoqrafik xüsusiyyətlərini də araşdıran M.Nağısoylu əsərdə Quran ayələrinin və binomların qızıl suyu və göy boya ilə qələmə alındığını, əlyazmanın Şərq paginasiya üsuluna əsasən vərəqləndiyini, ümumi tərtibi prinsipinə və paleoqrafik xüsusiyyətlərinə görə əlyazmanın şah kitabxanası üçün hazırlandığını və tək nüsxə olmadığını yazır. Əlyazmanın bütün qrafik xüsusiyyətlərini geniş şəkildə araşdıran M.Nağısoylu sait səslərin söz əvvəli, ortası və söz sonunda yazılış şəkilləri, istisnaları, fərqliliklərin səbəblərini üzə çıxarmışdır. “Güman etmək olar ki, Nişati bu cür fərqli imla ilə diqqəti həmin sözlərin dilimizin ayrı-ayrı şivələrdəki tələffüz variantlarına (qara/qəra, qardaş /qərdaş və s.) yönəltmək istəmişdir. Bu xüsusiyyətləri eyni zamanda müəyyən mənada o dövrdəki imla sabitsizliyi ilə də izah etmək mümkündür. Orta əsr Azərbaycan əlyazmalarındakı imla sabitsizliyi çərçivəsində “Şühədanamə”nin orfoqrafik xüsusiyyətlərinin araşdırılması xüsusilə əhəmiyyət kəsb edir. Əsərdə tədqiq edilən əsas məsələlərdən biri də şəkilçilər onların qrafik ifadəsidir. Bu şəkilçilərin bəziləri müasir ədəbi dilimiz üçün arxaikləşmiş, lakin dialektlərimizdə qorunub saxlanmışdır. Feilin məsdər, qəti gələcək, şühudi keçmiş zaman, əmr şəklinin morfoloji əlaməti, sifətin müqayisə dərəcəsinin şəkilçisi, cəm şəkilçisi abidədə bir neçə formada yazılır ki, bu bəzən ahəng qanunu baxımından sözlərin faktik tələffüz qaydalarına uyğun gəlmir. Buna görə də “orta əsrlərdə yaşamış müəlliflərin əsərlərinin transfoneliterasiyasında ahəng qanunu ilə yanaşı, həmin əsərin hansı bölgədə kim tərəfindən və nə məqsədlə yazılması (və ya köçürülməsi), kimə həsr edilməsi, hansı üslubda yazılması, dialekt xüsusiyyətlərini nə dərəcədə əks etdirməsi və s. məsələlər də nəzərə alınmışdır.

“Şühədanamə” tərcümə əsəri olduğundan onun orijinal əsərlə müqayisəli tədqiqi istər mətnşünaslıq, istərsə də linqvistika baxımından mühüm elmi nəticələrin əldə edilməsinə imkan verəcəkdir. Çünki tərcümə əsərlərində orijinalın yazıldığı dilin təsiri hər zaman hiss olunur. Tərcümənin tekstoloji - filoloji təhlilini aparan şərqşünas alim farsdilli orijinaldakı bəzi hissələrin tərcümə edilmədiyini, Nişatinin şeirlərin tərcüməsində yaradıcı mövqe tutduğunu, klassik ənənələrə uyğun olaraq əsərdə nəsrlə yazılan dəbdəbəli və ibarəli ifadələrin yer aldığı “Rövzətüş-şühəda”nın sadə və canlı ümumxalq dilinə tərcümə edildiyini üzə çıxarmışdır.

Füzuli ecazkar və qüdrətli qələmi ilə Azərbaycan ədəbiyyatı tarixinə yalnız nəzm əsərləri deyil, nəsr əsərləri də bəxş etmişdir. Onun “Hədiqətüs-süəda” əsəri Azərbaycan klassik nəsr ədəbiyyatının əvəzolunmaz zirvəsidir. Dərin məzmun və ideyasına, yüksək bədii sənətkarlıq xüsusiyyətlərinə görə nadir sənətkarlıq nümunəsi sayılan “Hədiqətüs-süəda” əsəri Möhsün Nağısoylu elmi yaradıcılığında da mühüm yer tutur. “Hədiqətüs-süəda”nı mövzu baxımından bənzər əsərlərlə təhlil edən akademik ərəb dilində yazılmış Əbülfərəc İsfahaninin “Məqatilüt-talibin”, Əbu İshaq İsfərainin “Nurül-əyn fi Məşhədül-Hüseyn”, Hilləli Seyyid Rzaəddinin “Nəsrəi-Tausi”, fars dilində yazılmış Kaşifinin “Rövzətüş-şühəda”, türk dilində yazılmış Kastamonulu Şazinin “Dastani-məqtəli-Hüseyn”, Yəhya bin Bəxşinin “Məqtəli-Hüseyn”, Lameinin “Kitabi-Ali Rəsul” və s. əsərlərini təhlil edərək bu qənaətə gəlir ki, Şərq ədəbiyyatında “məqtəl” mövzusunda yazılmış ən güclü əsər kimi “Hədiqətüs-süəda” bütün əsərləri kölgədə qoyur. “Rövzətüş-şühəda”dan ilhamlanaraq qələmə alınan əsəri alim müqayisəli şəkildə təhlil etmiş, hər iki əsərin eyni məzmun və quruluşda olduğunu, hadisələrin tamamilə bir-biri ilə üst-üstə düşdüyünü vurğulamışdır. “Hədiqətüs-süəda” dil-üslub xüsusiyyətləri baxımından isə fərqlənir və burada Füzuli bədii-estetik gücü özünü göstərir. Füzuli qələminin mahirliyi əsəri orta əsr bədii tərcümə sənəti çərçivələrindən çıxarır və özünəməxsusluq qatır. Akademik bütün bu xüsusiyyətlərinə əsasən “Hədiqətüs-süəda”nı “təlif-tərcümə” kimi qəbul edir. Əsəri mətnşünas-şərqşünas yanaşması ilə dərindən araşdıran alimin Füzulinin əsər boyunca tətbiq etdiyi səc yaratma üsullarını bir-bir nümunələr əsasında təhlili və linqvistik xüsusiyyətlərinin tədqiqi bir daha sübut edir ki, yüksək bəşəri ideyasına görə “Hədiqətüs-süəda” əsrlərin sınağından şərəflə çıxan əbədiyaşar sənət nümunəsidir.

Ümumiyyətlə, ömrünü şərq tərcümə sənətinin incəliklərinin öyrənilməsinə həsr edən görkəmli akademik ortaçağ şərq bədii-ədəbi nümunələrinin tərcümə yolu ilə daha da zənginləşdiyini, tərcümənin başqa dillərdə yazıb-yaradan türk müəlliflərinin yaradıcılıqlarının yaşadılmasında da mühüm rolu olduğu qənaətindədir. Bu baxımdan əsasən türk əsilli müəlliflərin orta əsrlərdə tərcümə edilmiş əsərlərinə yer verilmiş, tədqiqat zamanı orijinal əsərlərdə türk ruhu, türk izi araşdırılmışdır. Belə əsərlərdən biri də XVI əsrdə tərcümə edilmiş Şeyx Əbülfəzl Hübeyş bin İbrahim bin Məhəmməd Tiflisinin “Kamilüt-təbir” kitabıdır. XII əsrdə yaşamış Hübeyş Tiflisi zamanəsində “Şeyx” ləqəbini qazanmış dərin elmi biliyə malik şəxsiyyət kimi tarixdə özünəməxsus yer qazanmışdır. Onun astronomiya, tibb, minerologiya, kimya, dilçilik, ədəbiyyat nəzəriyyəsinə aid ərəb və fars dilində yazılmış 25 əsəri mövcuddur ki, bunlardan 8-i tibb mövzusundadır. “Təqvimül-ədviyyə”, “Üsulul-məlahim”, “Kifayətüt-tibb”, “Bəyanüt-tibb”, “Mirhacit-tibb, “Sihhətül-əbdan”, “Bəyanün-nücum”, “Mədxəlün-nücum”, “Qanunul-ədəb”, “Tərcümanül-qəvafi”, “Üsulul-məlahim” “Bəyanüs-sənaət” kimi əsərlər yazmış Hübeyş Tiflisinin dövründə ən geniş yayılmış əsəri yuxuyozmaya həsr edilmiş “Kamilüt-təbir” kitabıdır. Əsərə edilən tərcümələrin içində öz mükəmməliyi ilə seçilən Xızır bin Əbdülhadi Bəvazinin “Kəvamilüt-təbir” əsəri XVI əsrdə Sultan Süleyman Qanuniyə ithaf edilmişdir. İstər orijinal əsərin geniş əhatəliliyi və mükəmməlliyi, istərsə də tərcümənin dilinin sadəliyi, etnoqrafik xüsusiyyətlərin gözəl ifadəsi akademik M.Nağısoylunun diqqətini cəlb etmişdir. Abidənin tərcümə məsələləri, bununla bağlı leksik, morfoloji, sintaktik xüsusiyyətləri alimin əsas tədqiqat obyekti olmuşdur. Əsərin səciyyəvi cəhətlərini üzə çıxaran müəllif yaradıcı tərcümə zamanı yeni sözlər yaratması, onları ilk dəfə ədəbi dilə gətirməsi faktını farsca mətndəki qarşılıqlarına uyğun gəlməklə yanaşı, dili zənginləşdirdiyini qeyd edir. Əsərin sintaktik xüsusiyyətlərinin təhlili bu qənaətə gəlməyə imkan verir ki, Bəvazici bütün tərcümə boyu işlətdiyi cümlələri onların farsca qarşılıqlarından fərqli quruluşda, özəl biçimdə qurmağa can atmış və buna uğurla nail olmuşdur.

Əsər üzərində uzunmüddətli və səmərəli tədqiqat aparan alimin fikrincə, “Kəvamilüt-təbir” klassik Azərbaycan tərcümə ədəbiyyatının ən dəyərli və nadir nümunələrindən biri olmaqla yanaşı, eyni zamanda bədii nəsrin ədəbi dil və elmi üslub tarixinin eləcə də, etnoqrafiyanın araşdırılması baxımından mühüm və əhəmiyyətli yazılı abdələrdən biridir.

İkicildliyə daxil olan əsərlər Möhsün Nağısoylu yaradıcılığının bir qismini əhatə edir. Çoxşaxəli tədqiqat sferasına sahib olan Möhsün müəllimin “Sədrəddin Konyəvi: İbnül-Ərəbi məktəbinin görkəmli davamçısı”, “Seyid Yəhya Bakuvinin “Gülşəni-əsrar” əsəri üzərində bir incələmə”, “Şeyx Səfiəddinin Mövlana beytlərinə şərhləri”, “Kəlilə və Dimnənin Azərbaycan türkcəsinə klassik tərcüməsi”, “Məhəmməd Hadinin poetik tərcümələri haqqında” kimi yüzlərlə məqaləsinin hər biri öz-özlüyündə geniş tədqiqat işləri üçün açar rolunu oynayır. Ömrünü Şərq ədəbi-elmi, bədii-mədəni tarixinin, tərcümə sənətinin öyrənilməsinə həsr edən akademikin seçilmiş əsərləri Azərbaycan dili tarixinin tədqiqində mühüm əhəmiyyət kəsb edir. XI-XII əsrlərə aid əsərlərin XV-XVI əsrlərdəki tərcümələrini, onların qarşılıqlı təhlilini aparan müəllif bir neçə əsrin dil mənzərəsini eyni zamanda tədqiqata cəlb edir, əsrlərarası dil keçidlərini müəyyən edir. Əsərlərin yazıldığı dövrün dil normalarını aydınlaşdırır və nəticə etibarilə özünəqədər qaranlıq qalmış məqamları aydınlaşdırır. Bu proses Abbasqulu ağa Bakıxanovun “Riyazətül-qüds” əsəri ilə XIX əsrə qədər davam etdirilir və nəticədə Azərbaycan tərcümə sənətinin ən azı 4-5 əsrlik tarixi açıqlanır. Ədəbi dil tarixinin hərtərəfli tədqiqi üçün zəngin faktlar verən bu əsərlərin eyni zamanda özünəməxsus bir sıra səciyyəvi xüsusiyyətləri ilə çağdaş tərcümələrdən əsaslı surətdə fərqləndiyi də əsaslandırılır. Dildə varisliyin daşıyıcısına çevrilən bu əsərlərin tədqiqi dilin dərin köklərini üzə çıxarmaqla yanaşı, klassikləşən ədəbi-bədii ənənələrin zənginliyini, əhatəliliyini sübut edir.

**Sayalı SADIQOVA,**
**professor,**
**Şəbnəm HƏSƏNLİ-QƏRİBOVA,**
**filologiya üzrə fəlsəfə doktoru.**

# UNEC-də Elmi Şuranın növbəti iclası





**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Elmi Şuranın növbəti iclası keçirilib.**

İctimaiyyətlə Əlaqələr Şöbəsinin məlumatında bildirilir ki, şurada UNEC İctimai Nəzarət Şurasının üzvləri də iştirak edib. UNEC-in rektoru, professor Ədalət Muradov qış imtahan sessiyasının obyektiv və şəffaf keçirilməsində göstərdiyi dəstəyə görə şura üzvlərinə təşəkkür edib. O bildirib ki, UNEC İctimai Nəzarət Şurası universitetdə bütün tədris boyu fəaliyyət göstərəcək və bir ixtisasın idarəetməsi tamamilə onlara həvalə olunacaq.

İclasda UNEC-in tədris və təlim texnologiyaları üzrə prorektoru, professor Damət Bağırov qış imtahan sessiyasının yekunlarına dair hesabatla çıxış edib. Prorektor qış imtahan sessiyasında ötən illərlə müqayisədə daha yüksək nəticələr əldə edildiyini bildirib. “İqtisadiyyata giriş” fənninin ilk dəfə olaraq yazılı keçirilməsinə diqqət çəkən prorektor, tələbələrin 53%-nin bu imtahanları yaxşı və əla qiymətlərlə başa vurduğunu müsbət hal kimi qiymətləndirib.

Sonra UNEC İctimai Nəzarət Şurasının koordinatoru, “XXI Əsr” Təhsil Mərkəzi İB-nin rəhbəri Etibar Əliyev şura üzvlərinin UNEC-də üç imtahan sessiyasını izlədiklərinə diqqət çəkib. O, imtahanlarda obyektivlik və şəffaflığın təmin edilməsini yüksək qiymətləndirib: “Müşahidələrimizi təhlil edəndə görürük ki, UNEC hər dəfə ötən illə müqayisədə qarşıya qoyduğu hədəfə doğru daha da inamla irəliləyir”.

E.Əliyev qış imtahan sessiyasında UNEC İctimai Nəzarət Şurasının tələbələr arasında keçirdiyi anonim rəy sorğusunun nəticələrinə əsasən, tələbələrin UNEC-də tətbiq edilən islahatları yüksək qiymətləndirdiyini qeyd edib.

Elmi Şurada UNEC-in tədqiqatyönümlü universitetə çevrilməsi istiqamətində həyata keçirilən tədbirlər müzakirə olunub. Bu istiqamətdə məqsədyönlü addımların atılması üçün müəyyən qərarlar qəbul olunub.

**Ülvi QARAYEV,**
**“Respublika”.**

# “Günəşli” yatağında növbəti quyuda qazma işlərinə başlanıb

**Qeyd edək ki, 321 saylı quyunun Balaxanı X horizontunda qazılması planlaşdırılır və quyunun layihə dərinliyi 2810 metr təşkil edir.**

Dəyərlərinə daim sadiq qalan SOCAR AQŞ həmişə olduğu kimi, bu və növbəti quyuları da Sağlamlıq, Texniki Təhlükəsizlik və Ətraf Mühitin Mühafizəsi (STTƏMM) tələblərinə uyğun, heç bir mürəkkəbləşməyə yol vermədən, nəzərdə tutulan vaxtdan tez və iqtisadi səmərəli şəkildə tikərək sifarişçiyə təhvil verəcəkdir. Sifarişçi SOCAR-ın “Azneft” İstehsalat Birliyidir.



Onu da qeyd edək ki,SOCAR-AQŞ MMC inteqrə olunmuş qazma və quyu xidmətləri göstərən birgə müəssisə kimi SOCAR və Abşeron Qazma Şirkəti tərəfindən 2007-ci ildə təsis edilmişdir. Müəssisənin əsas fəaliyyəti quyuların layihələndirilməsi və planlaşdırılması, neft və qaz quyularının qazılması, maili istiqamətləndirilmiş quyuların qazılması, horizontal quyuların qazılması, quyuların mənimsənilməsi, quyuların əsaslı təmiri, yan lülələrin qazılması və çoxşaxəli quyuların qazılması ilə bağlı iş və xidmətlərin təqdim edilməsindən ibarətdir. Hazırda SOCAR-AQŞ dayaz sulu “Günəşli” yatağında yerləşən 7 və 11 saylı, “Qərbi Abşeron” yatağının 20 saylı, “Ümid” yatağının 1 saylı və “Bulla” yatağında 6 saylı Dərin Dəniz Stasionar Özüllərində (DDSÖ) qazma işləri aparır.

2017-ci ildə SOCAR AQŞ dənizdə neft və qaz quyularının qazılması və quyu təmiri xidmətlərinin göstərilməsi sahəsi üzrə API Spec Q2 Keyfiyyət İdarəetmə Sisteminin tələblərinə əsasən sertifikatlaşdırılmışdır.

**Müşfiq MİRZƏ,**
**“Respublika”.**

# “Yer səthinin məsafədən müşahidə xidmətlərinin təşviqi” üzrə növbəti müsabiqə



“Azərkosmos” ASC “Azərbaycanın davamlı inkişafı naminə Yer səthinin məsafədən müşahidə xidmətlərinin təşviqi” müsabiqəsinin 2018-2019-cu illər üzrə keçiriləcək növbəti mərhələsini elan edib.

“Azərkosmos” ASC 2016-2017-ci illər ərzində təşkil olunan “Azərbaycanın davamlı inkişafı naminə Yer səthinin məsafədən müşahidəsi xidmətlərinin təşviqi” müsabiqəsinin qalibləri ilə görüş keçirib.

Görüşdə müsabiqə çərçivəsində qalib gələn səkkiz layihənin nəticələri müzakirə olunub. Qalib layihələrin hesabat sənədlərində əsasən, Azərbaycanın ərazisində yerləşən palçıq vulkanlarının, buzlaqların, Kür və Araz çaylarının hövzələrində çay daşmalarının və onların fəsadlarının proqnozlaşdırılması, Abşeron yarımadasının ərazisində neft hasilatı zamanı neftlə çirklənmiş torpaq ərazilərinin spektral xarakteristikaları və bu kimi digər məsələlərin Azersky - Yer səthinin məsafədən müşahidəsi peykindən əldə edilən peyk təsvirləri vasitəsilə öyrənilməsi öz əksini tapmışdır.

Bununla yanaşı, görüşdə 2018-2019-cu illər üzrə keçirilməsi planlaşdırılan növbəti “Azərbaycanın davamlı inkişafı naminə Yer səthinin məsafədən müşahidə xidmətlərinin təşviqi” müsabiqəsi elan olundu. Layihə çərçivəsində elmi-tədqiqat institutları, universitetlər, elmi tədqiqatla məşğul olan digər qurumlar, həmçinin hüquqi və ya fiziki şəxslər öz təkliflərini təqdim edə bilərlər. Təkliflər 30 aprel 2018-ci il tarixinədək qəbul olunacaq.

“Azərkosmos” ASC 31 may 2018-ci il tarixinədək qalib təkliflərin müəlliflərini təmənnasız olaraq təkliflərində qeyd olunan tələblərə uyğun olaraq “Azersky” peyki vasitəsi ilə əldə olunan təsvirlərlə təmin edəcək.

**Bəybala BƏYBALAYEV,**
**“Respublika”.**

# "ADA" Universiteti magistrant olmaq istəyənləri "Açıq qapı" gününə dəvət edir

"ADA" Universiteti magistratura təhsili ilə maraqlananları "Açıq qapı" gününə dəvət edir.

Magistratura imtahanının birinci mərhələsindən uğurla keçən abituriyentlər martın 7-si saat 16:00-da universitetin tədris mərkəzində keçiriləcək "Açıq qapı" gününə qatıla bilərlər.

"ADA" Universitetindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə iştirakçılara bu ali məktəb, akademik proqramlar, pedaqoji heyət, tələbə həyatı, təcrübə imkanları və Karyera Mərkəzinin fəaliyyəti barədə ətraflı məlumat veriləcək, qəbul şərtləri izah ediləcək.

Tədbirdə "ADA" Universitetinin akademik işlər üzrə prorektoru Vəfa Kazdal, İctimai və Beynəlxalq Münasibətlər İnstitutunun dekanı Elnur Soltanov və Biznes İnstitutunun dekanı Elkin Nurməmmədov çıxış edərək təcrübə və tövsiyələrini bölüşəcək, iştirakçıların suallarını cavablandıracaqlar.

2018-2019-cu tədris ilində "ADA" Universiteti dörd ixtisas üzrə iki illik magistr proqramları təklif edir:

- Diplomatiya və beynəlxalq münasibətlər
- Dövlət idarəetməsi
- Biznesin idarə edilməsi (MBA)
- Təhsil üzrə menecment.

Tədris ingilis dilində aparılır. Dərslər həftədə üç dəfə axşam saatlarında keçirilir.

"ADA" Universitetində keçiriləcək "Açıq qapı" günündə iştirak etmək istəyənlər *events@ada.edu.az* elektron poçt ünvanı vasitəsilə əlaqə saxlayaraq qeydiyyatdan keçə bilərlər. Girişdə şəxsiyyət vəsiqəsi təqdim edilməlidir.

**AZƏRTAC**

## Azercell-dən abunəçilərinə 100 dəqiqə hədiyyə

**Ölkənin lider mobil operatoru Azercell Telekom MMC yeni kampaniyaları ilə abunəçilərini sevindirməyə davam edir. Martın 1-dən etibarən Azercell-in Eksklüziv mağazalarında istənilən aylıq internet paketlərə, tarif paketlərə (GencOL, Hədsiz, Hədsiz Zəng, Hədsiz İnternet, Kombo, Biznes 200) qoşulan və yaxud istənilən telefon modeli və ya aksessuar əldə edən abunəçilərə şəbəkədaxili 100 dəqiqə danışıq həcmi hədiyyə veriləcək.**




Qeyd edək ki, Azercell-in Eksklüziv mağazaları Bakı (Bülbül pr., 5, Qara Qarayev prospekti, ev 30/42, mənzil 52), Xırdalan (Heydər Əliyev pr. Mehdi Hüseyin küç. 54), Mərdəkan (Mərdəkan qəs., S.Yesenin küç., 92/2, m.30), Xaçmaz (Nəriman Nərimanov küç., 40) və Qubada (Heydər Əliyev prospekti, 194) abunəçilərin ixtiyarına verilib. Ən müasir avadanlıqla təchiz olunaraq yeni Nordik konsepsiyasına uyğun bu mağazalarda abunəçilər istədiyi məhsulu tədqiq və müqayisə edə, sınaqdan keçirə bilirlər. Eyni zamanda, abunəçilər mobil texnologiyaları dəstəkləyən müxtəlif aksessuarları, cihazları, mobil telefonları kredit və nağd şəkildə əldə etmək imkanı qazanırlar.

Azercell Telekom bayramlar ərəfəsində abunəçilərini bir-birindən sərfəli kampaniyalarla sevindirməkdə davam edəcək.

**Ülvi QARAYEV,**
**"Respublika".**

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti şəxsi iş qovluqlarının satınalınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

| Tender 1 (bir) lot üzrə keçirilir: | | İştirak haqqı (manatla) |
|---|---|---|
| Lot 1 | Şəxsi iş qovluqları | 250 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasından ala bilərlər.

**Hesab:** Dövlət Xəzinədarlığı Agentliyi kod: 210005; VÖEN 1401555071; M/h: AZ41NABZ01360100000000003944; S.W.İ.F.T BİK: CTREAZ22; Dövlət Sərhəd Xidməti VÖEN 1700360581; H/h: AZ19CTRE00000000000002388501; XHK 142319 2388501(2310) fond 3

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqə telefonu: (Tel: (012) 498-01-36)**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*- tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 12 aprel 2018-ci il saat 17:00-dək, tender təklifi, bank zəmanəti və iş qrafiki isə möhürlənmiş ikiqat zərfdə 23 aprel 2018-ci il tarixə saat 16:00-dək Dövlət Sərhəd Xidmətinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təkliflərində sərfəli qiymət və yüksək keyfiyyətlə qiymətləndirilən meyarlara üstünlük veriləcəkdir.

İddiaçıların təklifləri 24 aprel 2018-ci il tarixdə, saat 15:00-da Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasında açılacaqdır.

İddiaçı və ya onun notarial qaydada təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxslər tender prosedurunun açılışında iştirak edə bilərlər.

**Dövlət Sərhəd Xidmətinin**
**Tender Komissiyası.**

TƏKRAR

Müdafiə Nazirliyinin Mənzil-İstismar İdarəsi inşaat materiallarının satınalınması üçün açıq tender elan edir

1. İnşaat materialları

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində malların keyfiyyəti nəzərə alınmaqla ən aşağı qiymətə və əsas şərtlər toplusunda göstərilən meyarlar əsasında ən sərfəli sayılan tender təklifinə üstünlük veriləcəkdir.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər elan verilən tarixdən aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra (06 mart 2018-ci il tarixə saat 12:00-dək) Azərbaycan dilində tərtib olunmuş satınalmanın əsas şərtlər toplusunu ala bilərlər.

İştirak haqqında məbləğ
1-ci 300.00 (manatla)
Adı: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN 1401555071
Müxbir hesabı:
AZ41NABZ01360100000000003944
S.W.İ.F.T. BİK CTREAZ 22
Adı: AR Müdafiə Nazirliyi Mənzil-İstismar İdarəsi
Hesab nömrəsi:
AZ84CTRE00000000000002058501,
VÖEN:1502473591,
Büdcə səviyyəsinin kodu:142319 Fond3. Müdafiə Nazirliyinin tenderdə iştirakı haqqı.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Bütün iddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün ərizə (müəssisənin adı, yerləşdiyi ünvan, poçt indeksi, telefon nömrəsi, rəhbərinin adı, soyadı göstərilməklə möhürlənmiş və imzalanmış olmalıdır);

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi (əsli);

-tender təklifi (tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-tender təklifi qiymətinin 3 faizi həcmində bank təminatı (tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır) tender təklifi ilə birlikdə təqdim olunmalıdır. Bank təminatı tender zərfinin təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və tenderdən kənarlaşdırılır;

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (müvafiq orqanlardan);

-iddiaçının son bir ilə (əgər daha az müddətdə fəaliyyət göstərirsə, bütün fəaliyyət müddətində) maliyyə vəziyyəti haqqında bank arayışı;

-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən rəsmi məlumat;

-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notarial qaydada təsdiq edilmiş surəti).

Tender iştirakçıları tələb olunan sənədləri 3 aprel 2018-ci il tarixə saat 12:00-dək, tender təkliflərini isə 12 aprel 2018-ci il tarixdə saat 12:00-a qədər ikiqat zərfdə möhürlənmiş və imzalanmış şəkildə Biləcəri qəsəbəsi, "Biləcəri-5" hərbi şəhərcik ünvanında yerləşən Mənzil-İstismar İdarəsində əlaqələndirici şəxslərə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan və ya göndərilən tender təklifləri qəbul olunmayacaqdır.

